‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

www.kaspi.az

10 AVQUST ŞƏNBƏ 2024 · № 30 (4181) · Qiymǝti - 40 qəpik






## QƏLƏBƏNİN İQTİSADİ EFFEKTİ

Bu gün qalib ölkə olaraq Azərbaycan özünün yeni iqtisadi inkişaf strategiyasını müəyyənləşdirir. Bu strategiya tək ölkəmizin yox, tarixi qələbəmizi hədəf alan Qərbin də enerji təhlükəsizliyinin təmininə istiqamətlənib.

SƏHİFƏ 3-də



## QISA MÜDDƏTDƏ İŞ TAPMAQ FÜRSƏTİ

Ölkənin ən aktual problemlərindən olan işsizlik probleminin həlli istiqamətində yeni mexanizm tətbiq ediləcək. “Məşğulluq haqqında” qanuna edilən dəyişikliklərlə bu məsələdə dövlət-özəl sektor əməkdaşlığı daha da genişləndiriləcək.

SƏHİFƏ 12-də



## BAKINI NECƏ YAŞILLAŞDIRAQ?

Bakıda orta hesabla bir adama beş kvadratmetr yaşıllıq düşür. Bu göstəricinin normadan az olmasını rəsmi qurumlar da etiraf edir. Çıxış yolu kimi yaşıllıqların artırılması, Abşeron yarımadasının yükünün azaldılması göstərilir.

SƏHİFƏ 13-də



QARDAŞ ÖLKƏLƏRİN NÖVBƏTİ ƏMƏKDAŞLIQ TOPLANTISI

# SON İKİ İLDƏ 16-CI SƏFƏR

Astanada Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının növbəti görüşü keçirilib. Prezident İlham Əliyev tədbirdə qazaxıstanlı həmkarı Kasım-Jomart Tokayevin dəvətilə fəxri qonaq qismində iştirak edib.

### VAHİD TARİXİ-MƏDƏNİ COĞRAFİ REGİON

Prezident İlham Əliyev Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin dəvəti ilə Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının görüşündə iştirak etmək üçün Qazaxıstana səfər edib. Prezident bildirib ki, Azərbaycan və Mərkəzi Asiya ölkələri artan strateji əhəmiyyətə malik olan vahid tarixi-mədəni coğrafi regiondur.

### PREZİDENTLƏRƏ COP29 DƏVƏTİ

Dövlət başçısı vurğulayıb ki, Azərbaycan beynəlxalq ictimaiyyətin yekdil dəstəyini qazanaraq bu ilin noyabr ayında COP29 iqlim konfransına ev sahibliyi edəcəkdir: “Mən artıq Mərkəzi Asiya ölkələrinin prezidentlərinə rəsmi dəvət məktubları göndərmişəm və noyabrda Bakıda yenidən görüşməyimizə şad olaram”.

SƏHİFƏ 2-də

“Məni izləyərkən ağlayanlar da olub”

## “OX YAYDAN ÇIXANA QƏDƏR SƏNİNDİR”



Ölkəmizi Paris-2024 Yay Olimpiya Oyunlarında təmsil edən, kamandan oxatma üzrə Azərbaycan millisinin üzvü Yaylagül Ramazanova: “Hamiləliyin məşqə heç bir maneçiliyi yoxdur. Hər şey adi qaydada davam edir. Adətən bizdə belə başa düşülür ki, hamiləsənsə, idmanı dayandırmalısan. Amma əslində idmanla məşğul olmaq həm ananın, həm də onun bətnindəki körpənin sağlamlığı üçün faydalıdır. Mən olmayım, başqa bir idmançı xanım olsun, əgər yarışın bu mərhələsinə qədər gəlib çıxa bilibsə, məncə, o da sona qədər davam edərdi”.

SƏHİFƏ 8-9-da



## AVROPADA NÖVBƏTİ MİQRANT BÖHRANI

Miqrant böhranı indi də Böyük Britaniyanı cənginə alıb. İfrat sağçı qüvvələrlə polisin toqquşduğu nümayişlər ölkə boyunca yayılıb. İğtişaşlar London, Liverpul, Mançester, Portsmut, Lids və krallığın digər şəhərlərində, daha sonra isə Şimali İrlandiyada davam edib.

SƏHİFƏ 6-da



## QƏRBİN NÖVBƏTİ DON KİXOTU

Kanadanın xarici işlər naziri Melani Joli qərəzli bəyanatla çıxış edib. Münaqişə bölgəsindən minlərlə kilometr aralıda yerləşən bir ölkənin diplomatı ərazi bütövlüyündən danışırsa, yaqin məlumatı olmalıdır ki, bu prinsipə 30 il ərzində məhz Ermənistan riayət etməyib.

SƏHİFƏ 4-də



## “BİLMİRLƏR Kİ, BELƏ BİR ANSAMBL OLUB?”

Xalq artisti, “Lalə” qızlar ansamblının rəhbəri Ceyran Haşımova: “Qızlardan ibarət belə bir ansambl indiyə qədər olmayıb. Amma indi bu tarixi unudurlar. Ansamblı heç yerə dəvət etmirlər. Hər yerdə tələbələrim var. Xalq artisti, Əməkdar artistlərdir”.

SƏHİFƏ 15-də

İXRAC

## Perspektiv vəd edən sərfəli bazar



Körfəz ölkələri kənd təsərrüfatı məhsullarımız üçün çox əlverişli bazardır. Lakin ixracla bağlı maneələr bu istiqamətdə potensialımızdan tam yararlanmağa imkan vermir. Ekspertlər isə bu qənaətdədirlər ki, münbit bazarın tapılmasında sahibkarlar da fəal olmalıdırlar.

SƏHİFƏ 11-də

İDMAN

## Klublarımızın hamısının şansı qalır




Avrokubok təmsilçilərimizdən heç biri bu həftə keçirdikləri qarşılaşmalarda qələbə qazana bilmədilər. Amma klublarımızın üçünün də növbəti mərhələyə keçmək üçün yaxşı imkanları var.

SƏHİFƏ 16-da

# SON İKİ İLDƏ 16-CI SƏFƏR



Astanada Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının növbəti görüşü keçirilib. Prezident İlham Əliyev tədbirdə qazaxıstanlı həmkarı Kasım-Jomart Tokayevin dəvətilə fəxri qonaq qismində iştirak edib.

Prezident İlham Əliyev Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin dəvəti ilə Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının görüşündə iştirak etmək üçün Qazaxıstana səfər edib.

Dövlət başçısı avqustun 9-da Astanada Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının görüşündə iştirak edib. Azərbaycan Prezidenti tədbirdə çıxış edib. İlham Əliyev Mərkəzi Asiya Dövlət Başçılarının görüşündə fəxri qonaq qismində iştirak üçün dəvətə görə Qazaxıstan Prezidentinə təşəkkür edib:

"Bu, son iki ildə mənim Mərkəzi Asiya ölkələrinə 16-cı səfərimdir. Həmin müddətdə Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistandan olan həmkarlarım Azərbaycanı ümumilikdə 15 dəfə ziyarət ediblər".

### QARDAŞLIQ DƏSTƏYİ

Prezident bildirib ki, Azərbaycan və Mərkəzi Asiya ölkələri artan strateji əhəmiyyətə malik olan vahid tarixi-mədəni coğrafi regiondur. Xalqlarımızı çoxəsrlik tarix, mədəniyyət, din və ortaq dəyərlər birləşdirir:

"Ermənistanın işğalından azad edilmiş Qarabağın bərpasına dəstək qardaşlıq münasibətlərimizin təzahürlərindən biridir.

Ermənistan tərəfindən təxminən 30 illik işğal dövründə bu ərazilərdə 9 şəhər və yüzlərlə yaşayış məntəqəsi məhv edilib. İşğaldan azad olunmuş ərazilərdə hazırda genişmiqyaslı bərpa işləri aparılır və keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı davam edir.

Ötən il Füzuli şəhərində Özbəkistanın hədiyyəsi olan Mirzə Uluqbəy adına orta məktəbin, bu il isə Qazaxıstanın hədiyyəsi olan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılışı olub. Həmçinin bu il Ağdam rayonunda Qırğızıstanın hədiyyəsi olan orta məktəb binasının təməlqoyma mərasimi keçirilib. Bu qardaşlıq dəstəyinə görə Özbəkistan, Qazaxıstan və Qırğızıstan prezidentlərinə təşəkkürümü bildirirəm".

## MÜDAFİƏ VƏ TƏHLÜKƏSİZLİK SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ

Prezident İlham Əliyevin sözlərinə görə, dünyada artan təhdid və çağırışlar ölkələrimiz arasında müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın daha da gücləndirilməsini tələb edir: "Bu xüsusda, ötən ay Qazaxıstanda keçirilmiş və Azərbaycanın da iştirak etdiyi "Birləşdik-2024" beynəlxalq əməliyyat-taktiki komanda-qərargah təlimini xüsusilə vurğulamaq istərdim. Həmçinin Azərbaycanın hərbi təhsil müəssisələrində Mərkəzi Asiya ölkələrindən olan müdavimlərin təhsil almaları bu sahədə münasibətlərin inkişafının göstəricisidir.

Azərbaycan bərpaolunan enerji sahəsində Mərkəzi Asiya ölkələri ilə sıx əməkdaşlıqda maraqlıdır. Bu ilin may ayında imzalanmış "Azərbaycan, Qazaxıstan və Özbəkistanın enerji sistemlərinin birləşdirilməsi üzrə Əməkdaşlıq Memorandumu" yaşıl enerji sahəsində əməkdaşlığımızda ilk addımdır".

### BİRGƏ İNVESTİSİYA FONDLARI YARADILIB

Dövlət başçısı bildirib ki, qarşılıqlı fəaliyyətimizin mühüm istiqamətlərindən biri də nəqliyyat-tranzit sahəsində əməkdaşlıqdır. Bakı-Tbilisi-Qars dəmir yolunun yükaşırma qabiliyyətinin 1 milyon tondan 5 milyon tonadək artırılması, Ələt Beynəlxalq Ticarət Limanının illik ötürücülük qabiliyyətinin 15 milyon tondan 25 milyon tonadək artırılması istiqamətində görülmüş işlər, Xəzər dənizində Azərbaycanın ticarət donanması üçün yeni gəmilərin sifariş edilməsi, eləcə də Mərkəzi Asiya ölkələrində infrastruktur layihələrinin həyata keçirilməsi Orta Dəhlizin praktiki cəhətdən önəmini daha da artırır: "Qazaxıstan, Qırğızıstan və Özbəkistan ilə fəal şəkildə investisiya layihələri həyata keçirilir. Artıq Azərbaycan-Qazaxıstan, Azərbaycan-Qırğızıstan və Azərbaycan-Özbəkistan birgə investisiya fondları yaradılıb.



## RƏQƏMSAL TƏHLÜKƏSİZLİYƏ TÖHFƏ

Prezidentin sözlərinə görə, həyata keçirilən "Rəqəmsal İpək Yolu" layihəsi rəqəmsal infrastrukturun inkişafına və rəqəmsal təhlükəsizliyə töhfə verəcəkdir:

"Azərbaycan və Mərkəzi Asiya ölkələri beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edirlər. Bu xüsusda, BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı – SPECA-nı qeyd etmək istərdim. Ötən ilin noyabr ayında Bakıda keçirilmiş, SPECA-nın 25 illiyinə həsr olunmuş Zirvə görüşünün nəticələri əməkdaşlığımızın praktiki inkişafı baxımından əhəmiyyət kəsb edir. SPECA-nın Bakıda keçirilən Sammitində iştirak etdiklərinə görə Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistan prezidentlərinə bir daha təşəkkür edirəm".

### COP29-A DƏVƏT

Dövlət başçısı sonda vurğulayıb ki, Azərbaycan beynəlxalq ictimaiyyətin yekdil dəstəyini qazanaraq bu ilin noyabr ayında COP29 iqlim konfransına ev sahibliyi edəcəkdir: "Azərbaycan COP29-a sədrliyi çərçivəsində regionumuzda iqlim dəyişmələri ilə bağlı problemlərin həlli üçün Mərkəzi Asiya ölkələri ilə birgə təşəbbüsləri dəstəkləməyə hazırdır.

Mən artıq Mərkəzi Asiya ölkələrinin prezidentlərinə rəsmi dəvət məktubları göndərmişəm və noyabrda Bakıda yenidən görüşməyimizə şad olaram".

Qeyd edək ki, avqustun 9-da Astanada Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə "Mərkəzi Asiya Dövlət Başçılarının Fəxri nişanı"nın təntənəli təqdim edilməsi mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və digər dövlət başçıları tədbirdə iştirak ediblər.

Bundan əlavə, Prezident İlham Əliyev Astanada Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin adından dövlət başçılarının şərəfinə rəsmi qəbulda da iştirak edib.

# QƏLƏBƏNİN İQTİSADİ EFFEKTİ





Bu gün qalib ölkə olaraq Azərbaycan özünün yeni iqtisadi inkişaf strategiyasını müəyyənləşdirir. Bu strategiya tək ölkəmizin yox, tarixi qələbəmizi hədəf alan Qərbin də enerji təhlükəsizliyinin təmininə istiqamətlənib.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Otuz illik işğala və separatizmə son qoyan tarixi qələbəmizdən dörd ilə yaxın vaxt keçir. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi, xalqımızın birliyi və həmrəyliyi ilə əldə etdiyimiz bu qələbənin yaratdığı yeni reallıqlar, imkanlar Azərbaycanın həm iqtisadi inkişafı, həm də siyasi əlaqələrinin genişləndirilməsi baxımından böyük üfüqlər açır. Bu gün Azərbaycan bu imkanlardan maksimum yararlanmağı hədəfləyir. Ölkəmizin artan gücü, iqtisadi imkanlarının genişlənməsi Bakının regional və beynəlxalq müstəvidə də aparıcı oyunçuya çevrilməsinə şərait yaradır. Qələbənin Azərbaycanın iqtisadi inkişafında və siyasi nüfuzunun artmasındakı rolunu statistik rəqəmlərdə də görə bilərik.

### ARTAN MALİYYƏ GÜCÜ

Hazırda Azərbaycanın strateji valyuta ehtiyatları 69,7 milyard ABŞ dolları təşkil edir. Bu il ölkəmizdə 3,5-4 faiz səviyyəsində iqtisadi artım proqnozlaşdırılır.

Bu gün Azərbaycan müstəqillik tarixində ən böyük büdcəyə sahibdir. 2024-cü ilin dövlət büdcəsinin xərcləri 39 milyard 707 milyon manat, gəlirləri isə 36 milyard 353 milyon manat həcmində təsdiqlənib.

Məlum maliyyə imkanları Bakıya müstəqil siyasət yürütməyə, ona qarşı olan bütün təzyiqlərə rəğmən qarşısına qoyduğu hədəflərə doğru əmin addımlarla irəliləməyə imkan verir. Məhz bunun nəticəsidir ki, Azərbaycan təxminən Livan boyda tamamilə dağıdılmış, infrastrukturu məhv edilmiş ərazilərdə bərpa-quruculuq işlərini öz gücü ilə, heç kimdən yardım almadan sürətlə davam etdirir. Vətəndaşlarının 30 il boyunca həsrətlə yaşadığı doğma yurdlarına layiqli qayıdışını həyata keçirir.

### GENİŞLƏNƏN TRANZİT İMKANLARI

İşğal faktının aradan qalxması Azərbaycana özünün coğrafi və geosiyasi mövqeyinin yaratdığı potensialdan tam olaraq yararlanmağa da imkan yaradıb. Son dörd ildə Şimal-Cənub, Şərq-Qərb dəhlizlərinin inkişafı, yükdaşıma qabiliyyətinin artırılması istiqamətində ciddi addımlar atılmaqdadır.

Tək bu ilin statistik göstəricilərinə nəzər salmaq kifayətdir ki, sözügedən sahədə müşahidə edilən dinamikanın əyani şahidi olaq. Rəsmi məlumatlara əsasən, 2024-cü ilin yanvar-mart aylarında nəqliyyat dəhlizlərində daşınmış yüklərin həcmi 7980,6 min ton, yük dövriyyəsi isə 3233,8 milyon ton-km olub. Bu, əvvəlki ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 5,3 faiz və 9,0 faiz artım deməkdir. Nəqliyyat dəhlizləri vasitəsilə daşınmış yüklərin 60,2 faizini və ya 4808,0 min tonunu tranzit yüklər təşkil edib. Qeyd edək ki, bu rəqəmlər Azərbaycanın iştirakçısı olduğu bütün nəqliyyat dəhlizlərini əhatə edir. Sözügedən artım tarixi qələbəmizdən sonra dövlətin ali rəhbərliyinin yürütdüyü siyasi-iqtisadi kursun uğurlu nəticələri fonunda Azərbaycanın daha dinamik inkişafını stimullaşdıran mühüm amillərdən biri kimi dəyərləndirilir.

## CƏNUBİ QAFQAZIN LİDERİ

Hər bir ölkənin inkişaf indikatorları arasında ən vacib-lərindən biri də əlverişli investisiya mühiti və yatırılan xarici sərmayələrin həcmidir. Tarixi qələbəmizdən sonra Azərbaycanda yaranan dayanıqlı iqtisadi-siyasi mühit, sabitlik bu sahədə də Azərbaycanı Cənubi Qafqazın, hətta daha geniş miqyasda bölgənin lider dövlətlərindən birinə çevirib. Belə ki, Mərkəzi Bankın açıqladığı rəsmi məlumatlara əsasən, son beş ildə xarici ölkələrdən Azərbaycan iqtisadiyyatına cəlb olunmuş birbaşa xarici investisiyaların həcmi 26,53 milyard dollar təşkil edib. Bu məbləğin 48,7%-i son iki ildə cəlb olunan birbaşa xarici investisiyaların payına düşür. 2022-ci ildə ölkə iqtisadiyyatına cəlb olunmuş birbaşa xarici investisiyaların həcmi 30,9% artaraq 6,3 milyard dollara çatmışdısa, 2023-cü ildə bu rəqəm 2022-ci il ilə müqayisədə 6,1% artaraq 6,66 milyard dollar təşkil edib. Azərbaycan və Gürcüstanın Mərkəzi banklarının, Ermənistanın isə Dövlət Statistika Komitəsinin 2023-cü il üçün açıqladığı rəsmi rəqəmlərə görə, iqtisadiyyatına cəlb olunan birbaşa xarici investisiyaların həcminə görə Azərbaycan Cənubi Qafqaz ölkələri arasında böyük fərqlə lider olub. Hesabat dövründə Gürcüstana cəlb olunan investisiyaların həcmi 1,6 milyard dollar təşkil edib. Yəni 2023-cü ildə Azərbaycana cəlb olunan xarici investisiyaların həcmi qonşu ölkə ilə müqayisədə 4,2 dəfə çox olub. Ermənistana isə ötən il cəmi 502,7 milyon dollar xarici investisiya yatırılıb və ölkə Gürcüstandan 3,2 dəfə, Azərbaycandan isə 13,2 dəfə geri qalıb.

## BAKININ YENİ İQTİSADİ İNKİŞAF STRATEGİYASI

Bu gün qalib ölkə olaraq Azərbaycan özünün yeni iqtisadi inkişaf strategiyasını müəyyənləşdirir. Bu strategiya tək ölkəmizin yox, tarixi qələbəmizi hədəf alan Qərbin də strateji enerji təhlükəsizliyinin təmininə istiqamətlənib. Söhbət yaşıl enerji və yaşıl iqtisadiyyatdan gedir. Məhz tarixi qələbəmiz Şərqi Zəngəzur və Yuxarı Qarabağ iqtisadi zonalarında nəzərdə tutulan layihələrin reallaşdırılmasının əsas səbəbidir.

Prezident İlham Əliyevin Şuşada təşkil olunan Qlobal Media Forumunda vurğuladığı kimi, artıq Azərbaycan bərpaolunan enerji sahəsində böyük nailiyyətlərə imza atıb. 230 meqavat gücündə ən böyük Günəş Elektrik Stansiyası istifadəyə verilib: "İndi isə 240 meqavatlıq külək elektrik enerjisi stansiyası ilə bağlı işlər yekunlaşır və tezliklə biz 240 meqavatlıq Günəş Elektrik Stansiyasının açılışını edəcəyik. Birinci layihə "Masdar" şirkəti, ikinci layihə isə



"Acwa Power" şirkəti tərəfindən həyata keçirilir. Üçüncüsü isə BP tərəfindən inşa ediləcək. Yəni bunlar dünyanın aparıcı enerji şirkətləridir. Bununla yanaşı, ötən ay Bakıda biz üç Günəş və külək elektrik stansiyasının təməlini qoyduq, ümumi həcm bir qiqavatdır. Biz bu sahədə çox böyük işlər görürük".

Qarşıda bizi COP29 gözləyir. Hansı ki, miqyasına və əhəmiyyətinə görə dünyanın ən böyük tədbirlərindən sayılır. Bu, tarixi zəfər nəticəsində qalib dövlət adını qazanan Azərbaycanın həm iqtisadi potensialının, həm də beynəlxalq nüfuzunun göstəricisidir.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi


# QƏRBİN NÖVBƏTİ DON KİXOTU




**Kanadanın xarici işlər naziri Melani Joli növbəti dəfə Azərbaycanın ünvanına qərəzli bəyanatla çıxış edib. Münaqişə bölgəsindən minlərlə kilometr aralıda yerləşən bir ölkənin diplomatı ərazi bütövlüyündən danışırsa, yəqin məlumatı olmalıdır ki, bu prinsipə 30 il ərzində məhz Ermənistan riayət etməyib.**



RÜSTƏM QARAXANLI

Kanadanın Erməni Milli Komitəsinin yaydığı məlumata görə, bu ölkənin xarici işlər naziri Melani Joli növbəti dəfə Azərbaycanın ünvanına qərəzli bəyanatla çıxış edib. Mənbənin ciddiliyi təbii ki, şübhə doğurur. Ancaq hər halda, Ermənistan mediasının da cəld tirajladığı xəbərdə bildirilir ki, M.Joli ölkəsinin Azərbaycana "təzyiqləri davam etdirdiyini" bəyan edib: "Kanada münaqişənin danışıqlar yolu, Helsinki prinsiplərinə hörmət əsasında həlli naminə Ermənistanla vicdanlı əməkdaşlıq üçün Azərbaycana təzyiqləri davam etdirir". Bu azmış kimi, Joli onu da əlavə edib ki, Kanada rəsmi Bakıdan Ermənistanın ərazi bütövlüyünə hörmət etməsini və erməni əsirləri azadlığa buraxmasını tələb edir.

M.Joli müasir geosiyasətin tutduğu vəzifəsinə adekvat olmayan gülməli personajlarından növbətisidir. Almaniya XİN-in başçısı Angelina Berbok, yaxud Emmanuel Makronun sabiq birinci "diplomat"ı Katrin Kolonna kimi o da Ermənistanla Azərbaycan arasındakı qarşıdurmanın tarixi barədə heç bir məlumatı olmadan məsuliyyətsiz bəyanatlarla yadda qalıb. Əks halda xanım Joli ərazi bütövlüyü və Helsinki prinsiplərinə istinad etməzdi.

Joli kimi siyasətçilərin və Kanada kimi dövlətlərin Ermənistan sevdası Don Kixotun un dəyirmanları ilə mübarizəsinə bənzəyir. Münaqişə bölgəsindən minlərlə kilometr aralıda yerləşən, Kvebek kimi separatizmə meylli bölgəsi olan Kanadanın xarici işlər naziri ərazi bütövlüyündən danışırsa, yəqin məlumatı olmalıdır ki, bu prinsipə 30 il ərzində məhz Ermənistan riayət etməyib. Beynəlxalq hüququn əsas sütunlarından biri olan bu prinsipi qulaqardına vuran İrəvana bir dəfə olsun belə göz ağartmayan dövlətlərdən biri də elə Jolinin təmsil etdiyi Kanada olub. Sülh naminə "vicdanlı" əməkdaşlıqdan danışan Jolinin Ermənistanın əsas qanunundan xəbəri varmı? Əgər bir ölkənin konstitusiyasında digər dövlətin ərazi bütövlüyünə qarşı fetişləşdirilmiş iddia yer alırsa, hansı vicdan və ədalətdən söhbət gedə bilər?



Erməni diasporu və lobbisinin qurbanına və əsirinə çevrilmiş Joli kimi siyasətçilər, konqresmen və senatorlar təbii ki, belə bəyanatlar verərkən siyasi etika faktorunu unudurlar. Bu, onların şəxsi problemləridir. Ancaq Kanada boyda dövlətin, iqtisadi gücün xarici işlər nazirinin belə sadə məsələlər barədə məlumatlı olması ən azı vacibdir.

## GEOSİYASƏTİN "YUYULMAMIŞ ÇÖMÇƏLƏRİ"

Müasir dünyanın geosiyasi landşaftında elə ölkələr var ki, müstqil xarici siyasətə malik deyillər. Geosiyasətin "yuyulmamış çömçələri" olan bu dövlətlər qlobal güclərin nümayiş etdirdikləri tendensiyalara və təşəbbüslərə növbətçi yamaq funksiyasını yerinə yetirirlər. Özü də fərqi yoxdur bu ölkələr ərazilərinin sahəsinə, iqtisadi potensiallarına, əhalinin sayına görə dünyada hansı mövqeyə malikdirlər. Onlar böyüklüyündən, ya kiçikliyindən asılı olmayaraq diplomatik trekdə müstəqil sözə sahib deyillər. Belə ölkələrdən biri olan Kanadanın müasir tarixini vərəqləsək aydın şəkildə görünər ki, atdığı xarici siyasət addımlarının mütləq əksəriyyəti ABŞ-nin təşəbbüslərinin təqlidi olaraq qlobal konyunkturanın sədlərini aşmağa və müstəqillik imicini ən azı yalandan da olsa formalaşdırmağa qadir deyil. Vaşinqton və Parisin sifarişi ilə formalaşmış, Avropanın təqaüddə olan "keçmiş polis"lərindən ibarət "müşahidə missiyası"na ilk qoşulan qeyri-Avropa dövləti məhz Kanada olub. "Harada aş, orada baş" olan Kanada kimi dövlətlər aqressiv Qərbin qlobal ekspansionist siyasi xəttinin köməkçi ünsürlərindəndirlər.

Məhz buna görə də Ancelina Colinin adaşı Melaninin Azərbaycana münasibətdə qərəzli bəyanatlarını qeyri-adi və təsadüfi qəbul etmək lazım deyil. Kanada Ermənistan-Azərbaycan treki ilə bağlı başda ABŞ və Fransanın durduğu geosiyasi xəttin proksilərindən biri və növbətisidir. Üstəlik, Kanada kimi ölkələrin siyasi elitaları Cənubi Qafqaz bölgəsinin mürəkkəb etnik, siyasi və konfessional tarixini anlaya bilməzlər. Kanada bir dövlət olaraq hələ də müstəqillik kompleksini yaşayır.

## ERMƏNİPƏRƏST KANADA AZƏRBAYCANA TƏZYİQ EDƏ BİLMƏZ

Kanadanın XİN rəhbərinin hansı "təzyiqlər"dən danışdığı həm də ona görə müəmmalıdır ki, Bakıda bu barədə heç kim bir kəlmə belə olsun danışmır. Danışmır, çünki Kanadanın erməni diasporunun xülyası olan belə bir "təzyiqi" hiss olunmur. Hiss olunmur ona görə ki, Kanada Azərbaycana təzyiq edə bilməz. Rəngli corablar geyinən baş nazirin ölkəsi – Kanadanın Azərbaycanla bölüşə bilmədiyi nə var axı? Ermənilərə və Ermənistana simpatiyası olan hər bir dövlət yardım və dəstəyini bu ölkənin inkişafı, iqtisadi tənəzzüldən çıxması və tarixi-siyasi bataqlıqdan qurtulması naminə səylərə yönəldə bilər. Xanım Joli ermənilərə dəstək vermək istəyir? Buyurub ölkəsini Ermənistana kapital yatırmağa təşviq etsin. Hər il Ermənistanı onminlərlə vətəndaşı birdəfəlik tərk edir və üz tutduqları ölkələrdən biri də elə Kanadadır. M.Joli zəhmət çəkib kömək etsin ki, ermənilər "tarixi vətən"lərini belə asanlıqla qoyub qaçmasınlar. Tək bir il ərzində Azərbaycanın Qarabağ bölgəsindən Ermənistana köçmüş əhalinin az qala beşdəbiri üçüncü ölkələrə üz tutub. Onların Ermənistanı qoyub qaçmalarının da günahkarı bizik? Kanada kimi dövlətlər, M.Joli kimi siyasətçilər bizdən əlləri xalqımızın qanına batmış caniləri azad etməyi tələb etməkdənsə, özləri əsirlikdən qurtulsalar, daha yaxşı olar. Pul və siyasi dəstəyin könüllü əsirliyindən...

# PAŞİNYAN HÖKUMƏTİNİN İQTİSADİ ARTIM YALANLARI

Hökumət hər ay Ermənistan iqtisadiyyatının inkişaf etdiyini, vergi yığımlarının artdığını bildirir. Erməni mətbuatında yayılan xəbərlər, rəsmi statistika isə əslində belə olmadığını, məlumatların təhrif edildiyini, rəqəmlərin süni şəkildə şişirdildiyini üzə çıxarır.



## DRAMIN SÜNİ BAHALAŞMASI DA TƏHLÜKƏLİDİR

FUAD ABASOĞLU

Ermənistan iqtisadiyyatı növbəti tənəzzül dövrünə qədəm qoyub. Ötən ayın rəsmi məlumatlarına görə, ölkənin dövlət borcu 12 milyard dollar həddini, daxili borcu isə ilk dəfə olaraq xarici borcu üstələyib. Hər ötən il dövlət borcunun daha da şişməsi bir daha erməni iqtisadiyyatının tənəzzülünə işarə edir.

Buna baxmayaraq, Paşinyan hökuməti hər ay ölkə iqtisadiyyatının inkişaf etdiyini, vergi yığımlarının artdığını bildirir. Erməni mətbuatında yayılan xəbərlər isə əslində belə olmadığını, məlumatların təhrif edildiyini, rəqəmlərin süni şəkildə şişirdildiyini üzə çıxarır.

### RUSİYA-UKRAYNA MÜNAQİŞƏSİNİN GƏTİRDİYİ MÜVƏQQƏTİ ÜSTÜNLÜK

Rusiya-Ukrayna münaqişəsi başlayanda Ermənistan üçün süni iqtisadi artım pəncərəsi açılmışdı. Sadə dillə desək, Ermənistana Rusiya vətəndaşları gəldi, böyük pul köçürmələri oldu, onlar öz bizneslərinin bir hissəsini müvəqqəti buraya köçürdülər və nəticədə iqtisadiyyat aktivləşməyə başladı. Amma son vaxtlar bu istiqamətdə də geriləmə qeydə alınır. Ötən il ilə müqayisədə cari ildə Ermənistana pul köçürmələrində 16 faiz azalma müşahidə edilib. Ötən ilin ilk beş ayında bu rəqəm iki milyard 480 milyon dollar idisə, cari ilin ilk beş ayında iki milyard 88 milyon dollara qədər azalıb. Ötən il Rusiya ilə ticarət dövriyyəsi bir milyard 695 milyon dollar idisə, cari ildə isə bu rəqəm 205 milyon dollar azalıb. Xatırladaq ki, bunlar vətəndaşların göndərdiyi sosial əhəmiyyət kəsb edən pullardır. Onların hesabına insanlar məişət problemlərini həll edirlər.

Bank sistemi tərəfindən həyata keçirilən qeyri-kommersiya köçürmələrinin kəskin şəkildə azalmasının müxtəlif səbəbləri ola bilər. Amma güman ki, səbəblərdən biri hakimiyyətin transferlərlə bağlı həyata keçirdiyi siyasətdir. Belə ki, hökumət xaricdən ölkəyə göndərilən pulları vergiyə cəlb etməyə hazırlaşır.

Rusiya-Ukrayna müharibəsi zəminində yaranmış yeni reallıq fonunda 2022-ci ildə Ermənistanda ÜDM-də dövlət borcunun çəkisinin azalması, erməni dramının dollar qarşısında güclənməsi müşahidə olundu. Məsələn, o vaxt bir dollar 480 drama yox, 390 drama satılırdı. Bu isə ümumi gəlirlərdə dollarla olan borcun dəyərinin aşağı düşməsi demək idi. Əslində bu, ciddi problem idi. Çünki Ermənistanın uzunmüddətli perspektivdə 380-390 dram məzənnə limitini təmin edəcək iqtisadi potensialı yox idi. Dramın möhkəmlənməsi Ermənistan iqtisadiyyatının artması hesabına yox, xarici axınlar hesabına baş vermişdi.

### İQTİSADİ POTENSİALIN BOĞULMASI

2022-ci ildən sonra Ermənistan iqtisadi potensialını daha sürətlə itirməyə başlayıb. İxrac oluna bilməyən sektor ixrac edilə bilən sektoru daha da daraltmağa, boğmağa başlayıb. Bu isə öz növbəsində dövlət borcunun həcminə davamlı şəkildə təsir edib. Başqa sözlə, iqtisadiyyatın əsasını təşkil edən ixrac edilə bilən sektorun çəkisi ÜDM-də azalır. Bu isə yerli resursların gələcəkdə ÜDM yaratmayacaq bir sahədə basdırılması deməkdir.

### SÜRƏTLƏ ARTAN BÜDCƏ KƏSİRİ

2023-cü ildə Ermənistan parlamentində büdcənin icrasının müzakirəsi zamanı maliyyə naziri Vahe Hovhannisyan bəyan edib ki, hökumət riskləri azaltmaq üçün dövlət borcunun ABŞ dollarında payını azaldır. Amma təkcə ötən il dövlət büdcəsinin kəsiri 179 milyon dram olub. Sonrakı dövrdə də bu kəsir sürətlə artmaqda davam edib. Əgər Ermənistanın dövlət büdcəsinin mənfəət vergisi, gömrük rüsumu, aksiz vergisi, dövriyyə və gəlir vergilərindən formalaşdığını nəzərə alsaq, sözügedən sahələrdə hansı formada geriləmə olduğunu anlamış olarıq. Maraqlıdır ki, baş nazir Nikol Paşinyan çıxışlarında heç vaxt büdcə kəsirilə bağlı danışmır. Yalnız büdcə artımını vurğulayır, bununla da iqtisadi anlayışı dərin olmayan sadə erməni vətəndaşının gözünə pərdə tutur.



### ARTAN DÖVLƏT BORCU

Ermənistan xaricdən borc almaqda da davam edir. 2024-cü ilin geridə qalan dövründə Avropa Yenidənqurma və İnkişaf Bankından 236 milyon avro məbləğində kredit götürülüb. İyulun 18-də isə Ermənistanla Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında səhiyyə proqramının həyata keçirilməsi üzrə kredit sazişi imzalanıb. Bu müqavilə ilə Ermənistana 102 milyon avro kredit veriləcək. Başqa sözlə desək, hökumət büdcə kəsirini kreditlərlə ört-basdır edir.

### RUSİYADAN ASILILIQ BİR AZ DA ARTIB

Ermənistan hakimiyyətinin təmsilçiləri son vaxtlar tez-tez iqtisadiyyatımızın şaxələndirilməsindən danışır, bir mərkəzdən asılılığın yolverilməz olduğunu bildirirlər. Lakin rəsmi statistik məlumatlar sübut edir ki, erməni iqtisadiyyatı ciddi şəkildə Rusiya Federasiyasından asılıdır. Hökumət diversifikasiyadan danışsa da, tam əksini edir. Rusiya ilə xarici ticarət dövriyyəsinin artması da sübut edir ki, bu, de-diversifikasiyadır. Enerji ehtiyatları və xammal kimi əsas məhsullarla bağlı yenə də Rusiyadan ciddi asılılıq var.

Bu misallar bir daha sübut edir ki, Paşinyan hökumətinin yarıtmaz siyasəti nəticəsində Ermənistan iqtisadiyyatı can üstündədir. İqtisadi aktivlik azalır, dövlət borcu şişir, erməni dramı isə günü-gündən ucuzlaşır. Ölkədəki bahalaşma, iş yerlərinin kəskin azalması, kənd təsərrüfatının süqutu da iqtisadiyyatı məhvə sürükləyən əsas səbəblər sırasındadır.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# AVROPADA NÖVBƏTİ MİQRANT BÖHRANI



## HÖKUMƏT "MƏSCİDLƏRƏ EDİLƏN HÜCUMLARA DÖZMƏYƏCƏYİNİ" DEYİR

Avropanı bürüyən miqrant böhranı indi də Böyük Britaniyanı cənginə alıb. İfrat sağçı qüvvələrlə polisin toqquşduğu nümayişlər ölkə boyunca yayılıb. İğtişaşlar London, Liverpul, Mançester, Portsmut, Lids və krallığın digər şəhərlərində, daha sonra isə Şimali İrlandiyada (Belfast, Derri və s.) davam edib.



**AZƏR NURİYEV**

Avropanın ən multikultural dövləti olan Böyük Britaniyada gərginlik yaşanır. Avropanı bürüyən miqrant böhranı bu ölkədə də pik həddə çatıb. Belə ki, Sautport şəhərində üç azyaşlı qızın bıçaq zərbəsindən öldürülməsindən sonra ifrat sağçı qüvvələrlə polisin toqquşduğu nümayişlər ölkə boyunca yayılıb. İğtişaşlar London, Liverpul, Mançester, Portsmut, Lids və krallığın digər şəhərlərində, daha sonra isə Şimali İrlandiyada (Belfast, Derri və s.) davam edib.

### "İFRAT SAĞIN QULDURLUĞU"

Sosial mediada hadisəni "müsəlman bir mühacir"in törətdiyini iddia edən məlumatlar yayılandan sonra ifrat sağçılar nümayişlərə başlayıb, məscidlərə və miqrantların yaşadığı hotellərə hücum ediblər. Onlarla yanaşı, irqçiliyə qarşı olanlar da küçələrə çıxıblar. Həftəsonu baş vermiş iğtişaşlarda onlarla polis yaralanıb, 300-dən çox adam həbs edilib. Baş nazir Keir Starmer baş verənləri "ifrat sağın quldurluğu" kimi qiymətləndirib. O deyib ki, bu iğtişaşlara yol verənlər Britaniyanı təmsil etmirlər və onlar qanun qarşısında cavab verəcəklər. Ölkənin Daxili İşlər Nazirliyi açıqlayıb ki, bəzi nümayişlərdə ifrat sağçılar məscidləri hədəf aldığı üçün yeni qayda tətbiq olunacaq. Bununla da "zorakılıq riski altında olan" məscidlər "sürətli müdaxilə" heyəti tələb edə biləcəklər.

Britaniya hakimiyyəti hazırda açıq şəkildə miqrantların tərəfindədir. Yeni seçilmiş baş nazir Keir Starmer deyir ki, onun hökuməti polisin "ekstremistlər"ə və "nifrət yayanlar"a qarşı fəaliyyətini tam dəstəkləyir. Baş verənlər mediada, sosial şəbəkələrdə geniş müzakirə olunur. Bəziləri, məsələn, ABŞ-li iş adamı, milyarder İlon Mask hətta baş verənlərdə vətəndaş müharibəsinin proloqunu gördüyünü deyib.

### SAUTPORTDAKI HÜCUM NECƏ BAŞ VERİB?

Gərginliyə səbəb olan hadisə yay tətilində uşaqlar üçün sosiallaşma xidməti göstərən mərkəzdə baş verib. Hücumda həyatını itirən uşaqların - Alice Dasilva Aguiarın 9, Bebe Kingin 6, Elsi Dot Stankombenin isə 7 yaşı olub. Hücum zamanı 8 uşaq və 2 böyük yaralanıb. Polis hücumun "terror hadisəsi kimi qiymətləndirilmədiyini" açıqlayıb. Hadisəni törətməkdə şübhəli bilinən 17 yaşlı gənc saxlanılıb. Lakin azyaşlı olduğu üçün ilk olaraq onun adı açıqlanmayıb. Bu isə sosial mediada spekulyasiyalara səbəb olub. Polis bildirir ki, ifrat sağçı ekstremistlər uşaqları bıçaqlayan hücumçunun "islamçı" olması şayiəsi ilə hərəkətə keçiblər. Hücum edənin adı məhkəmədə açıqlanıb. Məlum olub ki, o, Ruandadan mühacirət edən ailənin oğlu olan Axel Muganvadır. Axel İngiltərədə doğulub, böyüyüb. Britaniya mətbuatında çıxan xəbərlərə görə, qonşuları onu "sakit uşaq" kimi qələmə verib və ailəsinin xristian olduğunu bildiriblər.



Keir Starmer

İlon Mask

Baş nazir Keir Starmer ölkədə kütləvi hal almış ultrasağçıların etirazları səbəbindən COBRA komitəsinin təcili iclasını çağırıb. COBRA-nın məqsədi fövqəladə hallara cavab planını müzakirə etməkdir. İclasda nazirlər, rəsmilər, polis və kəşfiyyatçılar iştirak edib. COBRA hökumət iclası 13 ildə ilk dəfə keçirilib. Görüşdən sonra baş nazir bir sıra tədbirlərin, o cümlədən bu cür hadisələrlə mübarizə aparmaq üçün polis qüvvələri daxilində mütəxəssislərdən ibarət "daimi ordu"nun yaradılmasının razılaşdırıldığını bildirib. "Biz məscidlərə və ya müsəlman icmalarına edilən hücumlara dözməyəcəyik. Beləliklə, bu iğtişaşlarda iştirak etdiyi aşkarlanan hər kəs qanunun bütün gücü ilə təqib ediləcək", - deyə Starmer bildirib. Baş nazir qeyd edib ki, qanun "həm onlayn, həm də oflayn rejimdəki fəaliyyətlər üçün" tətbiq edilməlidir.




### HADİSƏLƏRDƏ DİGƏR ÖLKƏLƏRİN ROLUNUN OLUB-OLMAMASI DA ARAŞDIRILIR

Böyük Britaniya hökuməti etirazların artmasına kömək edə biləcək dezinformasiyaların onlayn yayılmasında digər ölkələrin rolunu da araşdırır. "Euractiv" məlumat yayıb ki, Britaniya hakimiyyəti bu barədə sosial şəbəkələrlə əlaqəli şirkətlərə xəbərdarlıq edib, bu cür məlumatların yayılmasının qarşısını almaq üçün əlavə tədbirlər görməyin vacibliyini də vurğulayıb.

Hökumət ABŞ-li iş adamı, milyarder İlon Maskın şərhinə də sərt reaksiya verib. Britaniya Baş nazirinin sözçüsü İlon Maskın ölkədə vətəndaş müharibəsinin qaçılmaz olduğu ilə bağlı şərhini qınayıb.

Qeyd edək ki, İlon Maskın sahibi olduğu sosial media platforması "X"də yayılan dezinformasiyaların iğtişaşları daha da gücləndirdiyi bildirilir.

### "QƏRB SİVİLİZASİYASININ SONU"

Müşahidəçilər ümid edirlər ki, son illərdə Avropada antimiqrant, ksenofob çağırışları edən sağçı partiyaların nüfuzunun artması Britaniyadan yan keçəcək. Bəllidir ki, artıq sağçı radikalların daha fəal olduğu Almaniyada miqrantlara sığınacaq üçün ayrılan binalar yandırılır. İqtisadi problemlərlə yanaşı, miqrant axınının artması Avropada bir sıra mühafizəkar, sağçı qruplar, hətta yüksəkvəzifəli rəsmi şəxslər tərəfindən "Qərb sivilizasiyasının sonu", "Avropa mədəniyyətinin tənəzzülü", "xristianlığa təhdid", bəzən hətta "ağ irqin yoxa çıxması" şəklində qiymətləndirilir. Bununla da ictimaiyyətdə miqrantlara, fərqli mədəniyyətlərin daşıyıcılarına, başqa irqlərə münasibətdə kütləvi qorxu və qəzəb hissi yaradılır.

PROBLEMLƏRİN HƏLLİ İSTİQAMƏTİNDƏ DAHA KƏSKİN ADDIMLAR ATMAĞIN ZAMANI ÇATIB

# ÖZƏL SEKTORU NECƏ AKTİVLƏŞDİRMƏLİ?

Hökumət iqtisadi inkişafı dəstəkləmək məqsədilə özəl sektorun daha da aktivləşdirilməsini hədəfləyir. Bu, işsizliyin aradan qaldırılması, istehsalın artırılması, valyuta stabilliyinin yaradılması və iqtisadi inkişafın təmin olunması baxımından önəmlidir. Ekspertlər bunun üçün atılması vacib olan addımları sadalayırlar.





AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

İqtisadiyyat naziri Mikayıl Cabbarov "X" sosial şəbəkəsindəki hesabında özəl sektorun inkişafı ilə bağlı paylaşım edib. Paylaşımda Azərbaycanın biznes təmsilçiləri ilə birgə fəaliyyəti gücləndirərək özəl sektorda aktivliyi artırmaq niyyətində olduğunu bildirib.

Maraqlıdır, indiki şəraitdə özəl sektorun aktivliyini artırmaq üçün hansı addımlar atıla bilər?

### SAHİBKARLA DÖVLƏT SEKTORU ARASINDA KÖRPÜ

İqtisadçı-ekspert Vüqar Oruc bildirdi ki, özəl sektor nə qədər çox inkişaf etsə, dövlətin yükü bir o qədər azalar: "Dövlətin qarşısında duran əsas məsələ işsizliyin aradan qaldırılması, istehsalın gücləndirilməsi, ölkədə valyuta stabilliyinin yaradılması və iqtisadi inkişafın təmin olunmasıdır. Bütün bunlar təbii ki, özəl sektor vasitəsilə həyata keçirilir. Bu baxımdan nazirin bu fikirləri önəmlidir və bu günə qədər də Azərbaycan dövləti bu istiqamətdə mühüm addımlar atıb".

### YARADILAN ŞƏRAİT ÖZƏL SEKTORA STİMUL VERƏCƏK?

Özəl sektorun aktivliyi üçün atıla biləcək növbəti addımlarla bağlı danışan mütəxəssis vurğulayır ki, "Peşə birlikləri haqqında" qanun qəbul edilməli, vergi limitinə yenidən baxılmalı, Rəqabət Məcəlləsinin tətbiqinə başlanılmalıdır: "Müxtəlif peşə istiqamətlərində sahibkarlıq nümunələrini özündə birləşdirən assosiasiyaların fəaliyyəti təkmilləşdirilməli və idarə etmək üçün "Peşə birlikləri haqqında" qanun qəbul edilməlidir. İkinci mühüm addım vergi limiti ilə bağlıdır. Mövcud qanunvericiliyə görə, Azərbaycanda illik dövriyyəsi 200 min manat həddini keçən kiçik və orta sahibkarlıq subyektləri ƏDV ödəyicisinə çevrilirlər. Biz ƏDV-yə cəlb edilən dövriyyənin artırılmasını təklif etmişik. Çünki son limit 2015-ci ildə formalaşıb və ondan sonra inflyasiya olub, xidmətlərin xərcləri artıb. Hazırda 200 min manat limiti aylar üzrə böldükdə hər aya təqribən 16 min manat düşür. Bu da indiki şəraitdə və tələblərdə sahibkara uyğun deyil. Limit artırılmalıdır ki, şirkətlər xüsusilə də kiçik və orta biznes subyektləri daha münbit şəraitdə öz fəaliyyətlərini qurmaq imkanı əldə etsinlər. Üçüncüsü, uzun müddətli müzakirələrdən sonra qəbul olunan Rəqabət Məcəlləsi tətbiq olunmalıdır".



Vüqar Oruc

### "QARA BÜDCƏ"DƏN "AĞ BÜDCƏ"YƏ KEÇİD

İqtisadçı hesab edir ki, dövlət satınalmalarında iştirak edən xidmət sahələri üçün də münbit şərait yaradılmalıdır: "Növbəti addım vergi güzəştləri ola bilər. Vaxtilə Prezident tərəfindən yeddi il müddətinə vergi güzəştləri edilmişdi. Bu, yenidən tətbiq edilə bilər. Güzəştlər həm işğaldan azad edilən ərazilərimizdə fəaliyyət göstərən biznes subyektləri, həm də inkişafa meyilli obyektlər üçün keçərli olmalıdır. Vergi güzəştləri və vergilərin yenidən formalaşdırılması Azərbaycanda biznesin getdikcə şəffaflaşmasına, "ağ büdcə"yə keçiddə böyük stimul olar".

## MÜDAXİLƏLƏR ARADAN QALDIRILMALIDIR

İqtisadçı Fikrət Yusifov da vurğulayır ki, son illər hökumət biznes mühitinin yaxşılaşdırılması istiqamətində mühüm qərarlar qəbul edib. Lakin bunlar iqtisadiyyatı neftdən asılı olan bir ölkə üçün yetərli sayılmamalıdır: "Dünyanın enerji balansının sürətlə dəyişdiyi, neft hasilatının azaldığı, dünya bazarlarında qazın qiymətlərinin aşağı düşdüyü dönəmdə özəl sektorun indikindən də artıq inkişafına nail olmaq vacibdir".



İqtisadçı bildirir ki, özəl sektorun inkişafına nail olmaq üçün tədbirlər görməliyik: "Son 20 ildə Azərbaycanda özəl sektordan ixracın həcmi 260 milyon ABŞ dollarından 3,3 milyard dollara qədər artıb. Lakin bu rəqəm bizi arxayınlaşdırmamalıdır. İxracımız nə qədər artsa da, unutmamalıyıq ki, bu göstərici ötən ildə ümumi ixracımızın 12,4 faizini aşa bilməyib və ya idxalımızın 19,4 faizinə bərabər olub. Bir anlıq neft-qaz ixracımızı nəzərə almasaq, bu rəqəmin nə qədər kiçik olduğunu görərik və bu, bizi ciddi düşündürməlidir. Biz iqtisadiyyatımızın neftdən, qazdan asılılığını o vaxt aradan qaldırmış olarıq ki, ilkin mərhələdə özəl sektordan ixracımız heç olmasa ümumi idxalımızın 60 faizinə bərabər olsun. Yəni qeyri-neft sektorundan ixracdan əldə edilən valyuta ilə idxalımızın ən azından yarısını təmin edə bilək. Bunun üçün özəl sektordan indiki 3,3 milyard dollar ixracımızı yaxın üç il ərzində ən az üç dəfəyə qədər artırmalıyıq. Bu hədəfə çatmağın yeganə yolu ölkədə investisiya mühitini indikindən qat-qat yaxşılaşmasını təmin etməkdir. Yerli və xarici biznesə müdaxilələr birmənalı olaraq ortadan qaldırılmalıdır".

## İNVESTİSİYA MÜHİTİNƏ CİDDİ ƏNGƏL

Mütəxəssis vurğulayır ki, daha bir problem ayrı-ayrı sahələrdə mövcud olan monopoliyadır: "Bu ilin iyulun 1-dən etibarən qüvvəyə minmiş Rəqabət Məcəlləsində qoyulan tələblər kağız üzərində qalmamalı, real olaraq işləməlidir. Bu və ya digər formada monopoliyanın diktaturasını qurmaq istəyənlərə qarşı kimliyindən asılı olmayaraq amansız mübarizə aparılmalıdır".

Mütəxəssis sonda onu da vurğuladı ki, sadalanan problemlərin həlli istiqamətində daha kəskin addımlar atmaq zamanıdır. Çünki bunlar olmasa, yerli investisiya xaricə qaçmağa meylli olacaq, xarici investisiya isə inamsızlıq səbəbindən ölkəyə gəlməkdə tərəddüd edəcək.



Fikrət Yusifov

PEŞƏKAR

Kaspi ÜÇ DƏRİN QƏZETİ





PARİSDƏN QAYIDAN KAMANDAN OXATMA ÜZRƏ İDMANÇIMIZ YAYLAGÜL RAMAZANOVANIN OLİMPİADA TƏƏSSÜRATLARI "KASPİ"DƏ

# "SƏHƏR SAATLARIMI İDMANA, AXŞAMI İSƏ RƏSSAMLIĞA HƏSR EDİRƏM"

SÖHBƏTLƏŞDİ



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

**Yaylagül Ramazanova:** "Hamiləliyin məşqə heç bir maneçiliyi yoxdur. Hər şey adi qaydada davam edir. Adətən bizdə belə başa düşülür ki, hamiləsənsə, idmanı dayandırmalısan. Amma əslində idmanla məşğul olmaq həm ananın, həm də onun bətnindəki körpənin sağlamlığı üçün faydalıdır".

"13 ildir məşq etməyimə baxmayaraq, son 2-3 ildə daha yaxşı nəticələr göstərməyə başlamışam. 2013-cü ildə ilk dəfə Bakıda beynəlxalq turnirdə yer tutduqdan sonra müəllimlərim gördü ki, məndə alınır. Ondan sonra məni yeni kaman və oxla təmin etdilər. Beləliklə, mənim bu sahəyə həvəsim daha da artdı. Amma düşünürəm ki, tam peşəkar fəaliyyətim Avropa Oyunlarından sonraya təsadüf edir".

Bu sözlər ölkəmizi Paris-2024 Yay Olimpiya Oyunlarında təmsil edən, kamandan oxatma üzrə Azərbaycan millisinin üzvü Yaylagül Ramazanovaya aiddir. Xatırladaq ki, dünya reytinqində 61-ci sırada olan Ramazanova təsnifat mərhələsində 647 xalla 39-cu yeri tutdu. Bu, onun mövsümdə ən yaxşı nəticəsi idi. Yaylagül 1/32 finalda hamiləliyinin yeddinci ayında olmasına baxmayaraq, təsnifat mərhələsində 26-cı yeri tutan çinli An Tsiyuanı tay-brekdə 6:5 hesabı ilə məğlub edərək 1/16 finala vəsiqə qazandı. Burada o, Almaniyadan olan Mişel Kroppenə 2:6 hesabı ilə məğlub oldu.

Yaylagül Ramazanova 1990-cı il yanvarın 18-də Bakıda anadan olub. A.Vəliyev adına 258 saylı orta məktəbin məzunudur. 2015 və 2023-cü il Avropa Oyunlarının, 2019-cu il Dünya Çempionatının və 2016, 2018, 2021 və 2022-ci il Avropa çempionatlarının iştirakçısıdır. O, 70 metr məsafəyə oxatma üzrə ölkə rekordçusudur.

## İLK OLMAĞIN MƏSULİYYƏTİ

● **Siz ölkəmizi olimpiadada kamandan oxatma idman növündə ilk dəfə təmsil edən idmançı idiniz. Bunun məsuliyyəti sizin üçün nə idi?**

● İlk azərbaycanlı idmançıyam ki, kamandan oxatma idman növünü olimpiadada təmsil etdim. Bu, özü də qürurvericidir. İlk dəfə olduğu üçün düşünürəm ki, böyük bir şans idi. Özümə dedim ki, "bura qədər gəlmişəmsə, deməli, bacara bilərəm". İlk olmaq idmançıda özgüvəni də artırır.

● **Yarışların olimpini fəth etmək, təbii ki, bütün idmançılar kimi sizin də arzunuz olub. Olimpiadaya aparan yolun özü maraqlıdır. Bu, necə bir yoldur?**

● Bir ay bundan öncə Antalyada olimpiya oyunlarına lisenziya qazandım. Oraya komanda şəklində getmişdik, lakin komanda yoldaşlarımın lisenziya üçün xalı çatmadı. Bu səbəbdən Parisdə tək mübarizə aparmalı oldum. Lisenziyanı qazana bilmək üçün dörd rəqibimi keçməli idim. Onların dördünü də ötüb keçmək və lisenziya qazanmaq möhtəşəm duyğu idi. Olimpiadada iştirak üçün yalnız səkkiz idmançıya lisenziya verirdilər. Mənimlə bərabər 120 idmançı yarışırdı. Çox xoşbəxtəm ki, onların arasında mən də oldum.





Yarışlardan əvvəl çox ciddi hazırlaşırdıq, gündə səkkiz saat məşq edirdik. Yarış olsa da, olmasa da məşq həmişə olur. Başqa variantın yoxdur. İrəli getmək istəyirsənsə, yaxşı nəticələr əldə etməyi hədəfləmisənsə, gün ərzində qarşına müəyyən atış limiti qoyursan. Çox məşq etmək idmançının xeyrinədir, onun əzələlərini inkişaf etdirir.

## "İDMANLA MƏŞĞUL OLMAQ HƏM ANA, HƏM DƏ BƏTNİNDƏKİ KÖRPƏ ÜÇÜN FAYDALIDIR"

● **Bətninizdə altı aylıq övladınızla gün ərzində səkkiz saat məşq sizə çətin olmurdu?**

● Hamiləliyin məşqə heç bir maneçiliyi yoxdur. Hər şey adi qaydada davam edir. Adətən bizdə belə başa düşülür ki, hamiləsənsə, idmanı dayandırmalısan. Amma əslində idmanla məşğul olmaq həm ananın, həm də onun bətnindəki körpənin sağlamlığı üçün faydalıdır. Mən olmayım, başqa bir idmançı xanım olsun, əgər yarışın bu mərhələsinə qədər gəlib çıxa bilibsə, məncə, o da sona qədər davam edərdi.

● **Təbii ki, yarışı yarımçıq, titulsuz tərk etmək kədərlidir...**

● İndiyədək iştirak etdiyim bütün yarışlar yüksək səviyyəli olub. Dünyanın ən güclü idmançıları ilə mübarizə aparmışam. Onlarla yarışda baş çıxarmağı bacarmalısan. Parisdəki çinli rəqibim çox güclü idi. Mənim onu məğlub edə biləcəyimi gözləmirdi. Amma yanıldı. Olimpiadada birinci rəqibimə qalib gəldikdən sonra düşündüm ki, asanlıqla almaniyalı rəqibimə də qalib gələrəm. Amma təəssüf ki, bu, alınmadı. Düşünürəm ki, alman rəqibimin dincəlmək üçün vaxtı daha çox olmuşdu. Mən isə bir idmançıdan sonra yenidən yarışa qatıldım. Bu da rol oynayır. Zamanım bir az daha çox olsaydı qalibiyyət şansım yüksələrdi. Məğlubiyyətə baxmayaraq, dayanmağı düşünmürəm. Qalibiyyət üçün daha yüksək templə çalışacağam. Qalib gəlmək gözəl bir duyğudur. Bu hissi dadmağı hər kəsə arzu edirəm.

> *"Məğlubiyyətə baxmayaraq, dayanmağı düşünmürəm. Qalibiyyət üçün daha yüksək templə çalışacağam. Qalib gəlmək gözəl bir duyğudur."*

● **Paris Olimpiadası xatirinizdə başqa hansı təəssüratlarla qaldı?**

● Mütəmadi olaraq yarışlara getdiyimizə görə əksər idmançılar bir-birilərini tanıyır, öz ölkələrindən hədiyyələr gətirirlər. Amma elə ölkələr var ki, onların təmsilçiləri çox soyuq münasibət göstərirlər. Məsələn, Asiya ölkələrinin idmançılarına yaxınlaşıb salam vermək də olmur. Lisenziya mərhələsində hindistanlı rəqibimi məğlub etdikdən sonra görüşmək istəmişdim, amma o, üzünü çevirib getmişdi. Daha çox müəllimləri icazə vermirlər. Düşünürəm ki, bu da psixoloji vəziyyətlərinə təsir etməmək üçündür. Onlarda əsas mübarizə və nəticədir. Hər şeyi nəzərə aldıqları üçün idmançıları maksimum çərçivədə saxlamağa çalışırlar.

## "MƏNİ İZLƏYƏRKƏN AĞLAYANLAR, ƏSƏBİLƏŞƏNLƏR DƏ OLUB"

● **Ölkəmizi Parisdə təmsil edən idmançılara çox güclü dəstək var idi. Siz yarışda ən çox dəstəyi kimdən hiss etdiniz?**

● Yarışlarda məni həmişə məşqçilərim, ailəm və yoldaşım dəstəkləyib. Həyat yoldaşım da mənimlə bərabər bəzi yarışlarda iştirak edir, dəstək olur. Birlikdə digər idman yarışlarını da izləyirik. Olimpiadada həmvətənlərimizin dəstəyi böyük idi. Oyunları izləyən insanlar qalib gəlməyimi məndən də çox istəyirdilər. İlk rəqibimlə yarışanda insanlar dəstək videoları göndərirdilər. Hətta məni izləyərkən ağlayanlar, əsəbiləşənlər belə olub.



Yarışmaya qədər hansı ölkənin idmançısını məğlub etmişəmsə, həmin ölkələrin media nümayəndələri də məndən müsahibələr götürürdülər. Məsələn, hindistanlı rəqibimi məğlub etməyim bir ay öncə olsa da, yaddaşlarında qalmışdı ki, azərbaycanlı idmançı onların dəfələrlə olimpiadalarda iştirak etmiş güclü idmançısına qalib gəlib. Olimpiadaya lisenziya qazananların əksəriyyəti təcrübəlilər idi. Rəqiblərimin çoxu əvvəllər də olimpiadalara qatılmışdılar. Məndə isə ilk dəfə idi. Ölkəmizdə bu idman növü hələ gəncdir. Sovet dövründə populyar olsa da, müstəqillik dönəmindən sonra yeni-yeni inkişaf etməyə başlayır.

## "QALİBİYYƏT ÜÇÜN KOMANDA OLMALIDIR"

● **Yaxşı mövzuya toxundunuz. Kamandan oxatma ölkəmiz üçün nə qədər populyar idman növüdür?**

● Hələ ki, idmançı sayımız 50-100-ə güclə çatır. Onların da bəzilərinin davam etməyə səbri, maddi imkanları çatmır. Bu sahədə uğurlu olmaq üçün minimum bir, maksimum üç il lazımdır. Oğlan uşaqları müəyyən dövrə qədər özlərini bu sahədə inkişaf etdirirlər, amma bir müddətdən sonra pul qazanmaq üçün komandanı tərk etməli olurlar. Gələn oğlanların maksimum iki faizi bu sahədə qalır. İdmançılar yalnız yığma komandaya düşə bildikdə onların maddi məsələləri həll edilir. Yığmaya düşmək üçün də çox çalışmaq lazımdır. Ona görə də komandada daha çox qızlardır. Onlarda da güc, səbir, ambisiya olduqda davam edə bilirlər. İstəyərdim ki, komandamızda idmançıların sayı artsın, ölkəmizi xaricdə təmsil edək. Komandanın olması qalib olmaq şansımızı daha çox artırır. Hazırda müəyyən işlər həyata keçirilir, federasiyamız yenidən qurulur. Daha yaxşı olmağımız üçün yeniliklər edilir. Amma bunlar hələlik ilkin cücərtilərdir.

● **Deyirsiniz komandada daha çox qadınlardır. Bəs hansı cinsin təmsilçiləri bu sahədə daha uğurludur?**

● Düşünürəm ki, hər iki cinsin nümayəndəsi uğurlu ola bilər. Kişilər də peşəkar ola bilər, lakin onlarda səbir daha azdır. Bu idman növündə diqqət, fokuslanmaq çox önəmlidir. Psixoloji durumun zəifdirsə, çətin olur. Güc vacibdir, çünki dartım üçün güc lazımdır, kaman özü isə üç kiloqramdır. Bunu bacarmaq elə də asan deyil. İdmanda uğurlu olmaq üçün məqsədli və işinə fokuslanan olmalısan. Gördüyün işə, məşğul olduğun sahəyə sevginin olması vacibdir.

## "OX YAYDAN ÇIXANA QƏDƏR SƏNİNDİR"

● **Hər peşənin özünəməxsus çətinlikləri var. O cümlədən idman növlərinin də...**

● Bizim idman növündə ox yaydan çıxana qədər sənindir. Yaydan ayrıldıqdan sonra oxa heç bir müdaxilə edə bilmirsən. Nəzərə alınmalı amillər də çoxdur. Külək, hava amili böyük rol oynayır. Məsələn, olimpiadada çinli idmançı ilə ox atdığımız zaman hava birdən pisləşdi, yağış yağdı, sonra isə bürkü oldu. Yəni orada idmançının nə çəkdiyini bir özü, bir də bəlkə tribunada oturanlar bilirlər. Burada psixoloji durum da çox önəmlidir. Əlin, ayağın da əsə bilər. Özünü ələ ala bilsən, irəli gedəcəksən, ala bilməsən, nəticələr yaxşı olmayacaq.

● **Siz bu çətinliklərlə necə başa çıxırsınız?**

● İlk başlayanda bəzən həvəsdən düşürdüm. Çünki yarışlarda məğlub olduqda adam həvəsdən düşür. Amma sonrakı dövrlərdə artıq belə hallar olmurdu. Əvvəl hər hansı turnirdə uduzanda deyirdim ki, bir daha çıxış etməyəcəyəm. Amma Bakıya qayıtdıqdan sonra daha da çox çalışırdım, daha böyük nəticələr əldə etməyi hədəfləyirdim. Düşünürdüm ki, başqa ölkəyə bu qədər yol gəlmişəmsə, niyə məğlub olmalıyam? Artıq qarşıma məqsəd qoyurdum ki, gələn səfər daha yaxşısını edəcəyəm. Turist kimi gəzmək yox, qalib kimi ölkənə geri dönmək istəyirsən. Bu zamanlarda özümü ruhlandıran elə özüm olurdum.

**Fotolar:** Əjdər İbrahimov-Global Media Group



## "AİLƏM HƏM İDMANA, HƏM DƏ İNCƏSƏNƏTƏ YÖNLƏNDİRİB"

● **Özünüzün də qeyd etdiyiniz kimi, ölkəmizdə kamandan oxatma yeni-yeni populyarlaşır. Sizi bu sahəyə gətirən nə olub?**

● Mənim bu sahəyə gəlməyimin ən böyük səbəbkarı ailəmdir. Atam idman həvəskarıdır. Özü də idmanla məşğul olmağı çox sevir. İlk müəllimim də elə o olub. Atam həmişə bizə çox güclü motivasiya verib. Həmişə istəyirdi ki, uşaqları idmançı, rəssam olsunlar. Bəlkə də buna görədir ki, mən həm də incəsənət adamıyam.

● **İncəsənət insanısınız... Maraqlıdır, ikisinin arasında bağlılığı necə tapmısınız?**

● Fikrimcə, rəssamlıq və idmanın ortaq cəhəti səbirdir. Hər iki sahə yaradıcılıq tələb edir. Şəkli çəkməyə də, oxu atmağa da hövsələ lazımdır. Oxatmada da yaradıcılıq tələb olunur. Hər bir idmançının özünəməxsus yanaşma tərzi var. Uşaqlıqdan idman və incəsənət həmişə mənim üçün paralel gedib. Məsələn, 2015-ci ildə yaradıcı işlərimin əksəriyyəti oxatmaya aid idi. Təsadüfən hər iki sahəyə də eyni zamanda başlamışam. 2011-ci ilin yanvar ayında oxatmaya başladım, sentyabrdan isə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasına qəbul oldum.




## "HAZIRDA HƏM OXATMA, HƏM DƏ RƏSSAMLIQLA MƏŞĞUL OLURAM"

● **Seçim etməli olsaydınız, gələcək fəaliyyətinizi rəssam, yoxsa idmançı olaraq davam etmək istəyərdiniz?**

● Hazırda həm oxatma, həm də rəssamlıqla məşğul oluram. Rəssamlığın üstün cəhəti odur ki, onunla istədiyin yerdə məşğul ola bilirsən. Əvvəl sərgilərə daha çox qatılırdım. Son zamanlar yarışların çoxluğundan buna vaxt tapa bilmirəm. Hər gün rəsmlə məşğul olmuram, lakin hər ikisinə zaman ayırmağa çalışıram. Səhər saatlarımı idmana, axşamı isə rəssamlığa həsr edirəm. Gələcəkdə də hər iki sahə üzrə davam etməyi düşünürəm. İdmanda hədəfim daha da irəliyə getmək, daha yaxşı nəticələr əldə etməkdir. Rəssamlıq sahəsi üzrə isə fərdi sərgi təşkil etməyi düşünürəm. Fasilə vermiş olsam da, məncə, artıq zamanıdır.




# SOCAR HASİLATI ARTIRACAQ

**SOCAR-ın uzunmüddətli emitentin defolt reytinqi (IDR) və yüksək təminatsız reytinqi "BB+" səviyyəsindən "BBB-" səviyyəsinə yüksəldilib. Həmçinin, şirkətin hasilatı 0,5% artıracağı proqnozlaşdırılır.**

**Foto:** Tapdıq Abdullayev -Global Media Group

"Fitch" beynəlxalq reytinq agentliyi Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) uzunmüddətli emitentin defolt reytinqini (IDR) və yüksək təminatsız reytinqini "BB+" səviyyəsindən "BBB-" səviyyəsinə yüksəldib. "Report" xəbər verir ki, bu barədə agentlik məlumat yayıb.

### UZUNMÜDDƏTLİ IDR ÜZRƏ PROQNOZ "STABİL"DİR

Məlumatı görə, uzunmüddətli IDR üzrə proqnoz "stabil"dir. Bu, Azərbaycanın suveren reytinqinin yüksəlməsindən sonra baş verib.

SOCAR tam dövlətə məxsusdur və onun reytinqi hazırda "Fitch"in dövlətlə əlaqəli şirkətlər üçün (GRE) reytinq meyarlarına uyğun olaraq Azərbaycanın (BBB-/stabil) reytinqi ilə bərabərləşdirilib. Bu, şirkətə maliyyə zəmanətləri, nağd töhfələr və kapital qoyuluşları formasında dövlət dəstəyi, eləcə də SOCAR-ın sosial funksiyaları və neft-qaz layihələrinin inkişafı üçün dövlət vasitəsi kimi əhəmiyyəti ilə əsaslandırılır.

"Biz SOCAR-ın müstəqil kredit qabiliyyətini "bb-" səviyyəsində qiymətləndiririk ki, bu da onun orta həcmli neft və qaz hasilatını, güclü maliyyə profilini və korporativ idarəetmə məhdudiyyətlərini əks etdirir", - deyə "Fitch"in məlumatında qeyd olunub.




### "FİTCH" HASİLATIN ARTIRILACAĞINI PROQNOZLAŞDIRIR

"Fitch" həmçinin, (SOCAR-ın 2023-2025-ci illərdə hasilatı 0,5% artıracağını proqnozlaşdırır. Məlumata görə, ötən il SOCAR-ın neft və qaz hasilatı ümumilikdə gündəlik 286 min barel neft ekvivalenti səviyyəsində sabit olub: "Bu, Azərbaycanın neft hasilatının 8% azalması və qaz hasilatının 3% artmasının ardınca baş verib. Azərbaycanın neft hasilatı tarixən azalıb və biz bunun dəyişəcəyini gözləmirik. Güman edirik ki, təbii qaz hasilatının artması hesabına SOCAR-ın hasilatı 2023-2025-ci illərdə hər il 0,5% artacaq".

# "AZERCONNECT GROUP" SİLSİLƏ SEMİNARLARA DƏSTƏK OLUB

"Azerconnect Group"un dəstəyi və "Women in Tech Azerbaijan"ın təşkilatçılığı ilə "Müxtəliflik, inklüzivlik və dayanıqlıq - COP29 perspektivindən qlobal təcrübənin öyrənilməsi" təşəbbüsünə dair silsilə seminarlar çərçivəsində ilk tədbir keçirilib. "Həqiqi dəyişiklik üçün fərdlərin gücünün inkişaf etdirilməsi" mövzusuna həsr olunan ilk seminarda 23 şirkət iştirak edib.

Tədbirdə "Azerconnect Group", "Socar Cape LLC", "EY Azerbaijan", "Procter & Gamble" kimi şirkətlərin, həmçinin BMT-nin İnkişaf Proqramının nümayəndələri təqdimatlara çıxış edərək iştirakçılara müxtəliflik, inklüzivlik və dayanıqlıq üzrə qlobal təcrübə, bu sahədə həyata keçirdikləri uğurlu layihələr barədə ətraflı məlumat verib, dəstək məqsədilə onlara hazır həll yolları təklif ediblər.

"Azerconnect Group"un İnsan resursları üzrə baş müdiri Mətanət Babayeva şirkətdə inklüziv iş mühitinin yaradılması və gender bərabərliyini təşviqinə istiqamətlənən layihələr, əməkdaşlar üçün keçirilən təlimlər barədə danışıb. Bildirilib ki, "Azerconnect Group" ən yaxşı beynəlxalq insan resursları təcrübələrini tətbiq etdiyinə görə iki il ardıcıl olaraq nüfuzlu "Top Employers Institute" tərəfindən "Ən Yaxşı İşəgötürən" kimi seçilən yeganə yerli şirkətdir.

Qeyd olunub ki, yerli şirkətlər arasında ilk dəfə olaraq "Azerconnect Group" tərəfindən müxtəliflik, bərabərlik, inklüzivlik və mənsubiyyət prinsiplərinin təşviqinə həsr olunmuş 'WE are ALL ONE' adlı innovativ proqram həyata keçirilir. Vurğulanıb ki, müxtəliflik, inklüzivlik və dayanaqlılıq kimi dəyərlərin tətbiqi şirkətlərin həm daxili, həm də xarici mühitdə uğur qazanmasına kömək edir, onlara strateji üstünlük qazandırır. BMT-nin İqlim Dəyişikliyi Konfransı (COP29) ərəfəsində təşkil olunan təşəbbüsün əsas məqsədi müxtəliflik, inklüzivlik və dayanıqlıq üzrə yerli şirkətlərə qlobal təcrübəni ötürmək və təşkilatlararası fikir mübadiləsini təmin etməkdir.

"Azerconnect Group" ölkəmizin dinamik şəkildə inkişaf edən İKT və yüksək texnologiyalar sahələrində fəaliyyət göstərən şirkətdir.

# 12 MİLYON MANATLIQ ZƏRGƏRLİK MƏHSULU İXRAC EDİLİB



Hazırda Azərbaycanda satışda olan zərgərlik məhsullarının 60-65%-i yerli istehsal olan məmulatlardır. Bunu "Report"a açıqlamasında "Azərbaycan Zərgərlər Assosiasiyası"nın İdarə Heyətinin sədrinin müavini, "Qiymətli metallar və qiymətli daşlar" standartlaşdırma üzrə Texniki Komitənin sədri Rövşən Əmircanov bildirib.

"Ölkəmizə qiymətli metallar və qiymətli daşlar əsasən Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, İtaliya, Rusiya və Çindən idxal edilir. Eyni zamanda Azərbaycan Zərgərlər Assosiasiyasının apardığı araşdırmalara əsasən, bazarda təqdim olunmuş, satışda olan zərgərlik məhsullarının 60-65% Azərbaycan istehsalıdır. Bu da onun göstəricisidir ki, Azərbaycan istehsalı olan zərgərlik məmulatları idxal olunan məhsullardan heç də aşağı keyfiyyətdə deyil", - o qeyd edib. Onun sözlərinə görə, Azərbaycanın ixrac bazarları getdikcə genişlənir: "Bizim məmulatların Türkiyə, BƏƏ, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Rusiya kimi ölkələrdə kifayət qədər böyük rəqabətə malik gücü var. Qeyd olunan ölkələrdə Azərbaycana məxsus brendlərin satış nöqtələri var".

R.Əmircanov əlavə edib ki, 2023-cü ildə hazır zərgərlik məmulatlarının ixrac həcmi 12 milyon manat olub: "Bu göstərici xam qızılın və gümüşün ixracını özündə əks etdirmir. Eyni dövr üzrə xam qızılın və gümüşün ixracı 357 milyon manat təşkil edib".

Kaspi ÜÇ ƏSRİN QƏZETİ
Təsisçi
Global Media Group
Baş redaktor
İlham Quliyev
Redaksiya
Baş redaktorun müavini - Azad Əliyev
Müxbirlər – Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı
Müəlliflər – Azər Nuriyev, Xanım Aydın, Könül Cəfərli, Sevinc Abbasova, Faiq Tahirov
Korrektor – Vüsal Əliyev
Texniki şöbə
Kreativ direktor – Murad Arbay
Dizaynerlər
Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli
Yayım və satış meneceri
Vadim Manafov
Ünvan
Bakı, Səməd Vurğun 34, AF Mall
Telefon: (012) 525 03 31
kaspiqazeti@kaspi.az
Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 1802
Tiraj: 2350
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

İXRACI GENİŞLƏNDİRMƏK ÜÇÜN HANSI ADDIMLAR ATILMALIDIR?

# PERSPEKTİV VƏD EDƏN SƏRFƏLİ BAZAR

**Körfəz ölkələri kənd təsərrüfatı məhsullarımız üçün çox əlverişli bazardır. Lakin ixracla bağlı maneələr bu istiqamətdə potensialımızdan tam yararlanmağa imkan vermir. Ekspertlər isə bu qənaətdədirlər ki, münbit bazarın tapılmasında sahibkarlar da fəal olmalıdırlar.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycan Qətərə alma ixracını beş min dəfədən çox artırıb. Bu ilin yanvar-may aylarında ölkəmiz 22,25 milyon ABŞ dolları dəyərində 33 min 367 ton alma ixrac edib. Dövlət Statistika Komitəsinin hesablamalarına əsasən, bu, ötən ilin eyni dövrünün göstəricisindən dəyər ifadəsində 6,4 faiz, kəmiyyət olaraq - 3,4 faiz çoxdur. Hesabat dövründə Azərbaycan Rusiyaya 19,2 milyon ABŞ dolları dəyərində 28 min 526 ton, Özbəkistana 1,2 milyon ABŞ dolları dəyərində 1 360 ton, Qazaxıstana 589 min ABŞ dolları dəyərində 1 438 ton, Birləşmiş Ərəb Əmirliklərinə 736 min ABŞ dolları dəyərində 1 316 ton, Qətərə 181 min ABŞ dolları dəyərində 215 ton alma satıb. 2023-cü ildə Azərbaycandan 16 ölkəyə ixrac edilmiş 91 min 229 ton almanın 87,2 faizi Rusiyanın payına düşüb. Rəqəmlərdən də göründüyü kimi, ən çox məhsul ixracımız Rusiyayadır. Lakin Körfəz ölkələri də Azərbaycan meyvələri üçün yaxşı bazar ola bilər. Bəs biz bu potensialdan necə istifadə edirik? Bu sahədə çatışmayan nələr var? İxracı genişləndirmək üçün hansı addımlar atılmalıdır?

### "İXRAC MÜQAVİLƏLƏRİ İMZALANIR"

İxracın və İnvestisiyaların Təşviqi Agentliyindən bildirildi ki, bu ilin ilk yarısında Azərbaycan Körfəz ölkələrinə 944 min ABŞ dolları dəyərində alma ixrac edib: "2023-cü il üzrə bu göstərici bir milyon ABŞ dolları idi. Təkcə Qətərə 2024-cü ilin yanvar-iyun aylarında alma ixracının dəyəri 181 min ABŞ dollarına bərabər olub. Qeyd edək ki, Körfəz ölkələri arasında almanın ən çox ixrac olunduğu istiqamət BƏƏ bazarıdır. İlin ilk yarısında sözügedən ölkəyə 736 min ABŞ dolları dəyərində alma ixrac edilib. Körfəz ölkələrinə Azərbaycan meyvələrinin və digər məhsulların ixracı üçün əlverişli potensial var və bu potensialdan istifadə edilir. Qətərin paytaxtı Dohada fəaliyyət göstərən Azərbaycan Ticarət Evi bu prosesdə önəmli rol oynayır. Daha bir ticarət evimiz isə Dubayda fəaliyyət göstərir".

Agentlikdən verilən məlumata görə, ixrac potensialının artırılması üçün sahibkarların sərgilərdə iştirakı təmin olunur: "Biz Körfəz bazarında olan ixrac potensialının effektiv reallaşdırılması istiqamətində bu ölkələrdə baş tutan sərgilərdə "Made in Azerbaijan" brendi altında vahid ölkə stendi ilə sahibkarlarımızın iştirakını təmin edirik. Belə ki, 2024-cü ilin fevralında Dubayda baş tutan "Gulfood 2024" sərgisində Azərbaycandan 20-dən çox şirkət iştirak edib. Əlavə olaraq, bu ilin 21-23 may tarixlərində Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyad şəhərində "The Saudi Food Show 2024" sərgisində də 20 şirkətin vahid ölkə stendi ilə iştirakı təmin olunub. Hər iki sərgidə kənd təsərrüfatı məhsulları ixracatçıları iştirak ediblər. Qeyd edilən sərgilər sayəsində ixrac müqavilələri imzalanır, təcrübə mübadiləsi aparılır, yerli məhsullarımızın ixracı həyata keçirilir".




## ƏSAS MANEƏLƏR

Həmçinin bildirildi ki, istənilən sahədə olduğu kimi, bu sahədə də bəzi maneələr mövcuddur: "Əsas maneələr logistika xərcləri və marşrutlardır. Xüsusilə tez xarab olan məhsulların ixracı zamanı bu daha çox hiss olunur. Daşınma xərclərinin yüksək olması məhsulların rəqabət qabiliyyətli olmalarına manea olur. Nəticədə sahibkarlar ixracı reallaşdıra bilmirlər. Bu maneələrin aradan qaldırılması istiqamətində hazırda "Made in Azerbaijan" brendinin təşviqi mexanizmlərinə əlavələr və düzəlişlər olunur. Bu kontekstdə əsas məsələlərdən biri də logistika subsidiyalarının verilməsidir. Nəzərdə tutulan subsidiya mexanizmi Azərbaycanda bütün ixracatçılara şamil olunacaq və bu dəstək tədbiri ixracımızın yeni bazarlara genişləndirilməsinə dəstək olacaq".

## SAHİBKAR ÖZÜ MÜNBİT BAZAR TAPMALIDIR

İqtisadçı Akif Nəsirli də hesab edir ki, Körfəz ölkələri kənd təsərrüfatı məhsullarının ixracı üçün münbit bazarlardandır: "Həmin ölkələrin əksəriyyətində əhalinin gəlirləri yüksəkdir. Həmçinin ölkəmizdə bitən məhsulların çoxu o coğrafiyada mövcud deyil. Azərbaycan bu potensialdan istifadə etməlidir".

A.Nəsirlinin sözlərinə görə, sahibkarların bu ölkələrə çıxmamasının əsas səbəblərindən biri təcrübəsiz olmalarıdır: "Sahibkarlar gözləyirlər ki, bununla bağlı dövlət addım atsın, ölkə başçısı həmin ölkəyə səfər etsin, sahibkarları da özü ilə aparsın, orada müqavilə bağlasınlar və sonra ixraca başlasınlar. Əslində sahibkar özü dünyanın münbit bazarlarını axtarıb tapmalıdır. Sahibkarlar bu istiqamətdə maarifləndirilməlidirlər".

Ekspert həmçinin qeyd etdi ki, dünya bazarına çıxmaq üçün standartlara uyğun məhsullar istehsal etmək lazımdır: "Məsələn, ölkəmizdə külli miqdarda qarpız yetişdirilir. Amma onların adicə nitratını yoxlasaq, standartlara uyğun gəlmir. Belə məhsulları xaricə çıxarmaq çətindir. Bu da sahibkarların uzaqgörən olmamasından irəli gəlir. Kənd Təsərrüfatı Nazirliyinin bölgələrdə idarələri mövcuddur. Onlar bu məhsulların istehsalında aqrotexniki qaydaların, innovativ becərmə üsullarının tətbiq edilməsi, dünya standartlarına uyğun orqanik məhsulların yetişdirilməsi məsələsini sahibkarların qarşısında qaldırmalıdır. Məsələn, Qətərə alma ixrac edirik. Amma baxmalıyıq ki, başqa hansı məhsulları ixrac edə bilərik".


Akif Nəsirli

ÖZƏL SEKTORDA İŞLƏYİB MAAŞI DÖVLƏTDƏN ALACAQLAR

# QISA MÜDDƏTDƏ İŞ TAPMAQ FÜRSƏTİ



**İşsizlik probleminin həlli istiqamətində yeni mexanizm tətbiq ediləcək. “Məşğulluq haqqında” qanuna edilən dəyişikliklərlə bu məsələdə dövlət-özəl sektor əməkdaşlığı daha da genişləndiriləcək.**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

İnsanların iş tapmaq problemi hər zaman aktualdır. Bunun üçün cəmiyyətin və dövlətin köməyinə və dəstəyinə ehtiyacı yaranır. Bu baxımdan, hazırda işsizlərə yardım üçün xüsusi proqramlar hazırlanır və ixtisaslaşdırılmış məşğulluq mərkəzləri işləyir, sosial dəstək göstərir, işə düzəlməyə kömək təklif edilir. Eləcə də ölkəmizdə həyata keçiriləcək məqsədli proqramlar sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin olunmasına xidmət edəcək. Prezident İlham Əliyevin imzaladığı “Məşğulluq haqqında” qanuna edilən dəyişikliklərdən biri də bu proqramlarla bağlıdır.

Təbii ki, işsizlik problemi həll olunmalıdır və burada məşğulluğun təşviqi sahəsində əhaliyə və işəgötürənlərə xidmət göstərən məşğulluq orqanlarının böyük rolu var.

Bəs məqsədli proqramlar insanların üzləşdiyi işsizlik probleminin həllinə nə qədər yardımçı olacaq?

### YENİ İŞ İMKANLARININ YARADILMASI

“Məqsədli proqramlar qanunla müəyyən edilmiş sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər üçün yeni iş yerlərinin yaradılması ilə bağlı işəgötürənlərin verdiyi layihələrin işsizlikdən sığorta vəsaiti hesabına maliyyələşdirilməsidir”, - deyə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətindən sorğumuza verilən cavabda bildirildi. Belə ki, dəyişikliyə əsasən, məqsədli proqramların icrası müsabiqə yolu ilə seçilən işəgötürənlərin iştirakı ilə həyata keçiriləcək: “İşəgötürənlər yeni iş yerlərinin yaradılması ilə bağlı öz layihələrini təqdim edəcəklər. Müsabiqədə son bir il ərzində fəaliyyətdə olan və müraciət tarixinə ölkəmizdə vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəlikləri olmayan, son bir il ərzində işçilərin sayını azaltmayan və ya iş yerlərini ixtisar etməyən, müvafiq məlumatları vakansiya bankına təqdim edən işəgötürənlər iştirak edə biləcəklər”. DMX-dən bildirildi ki, müsabiqədə məqsədli proqramlar üzrə əmək bazarında ən çox tələb olunan peşələr üzrə, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər üçün münasib və dayanıqlı iş yerləri yaradan işəgötürənlərə üstünlük veriləcək: “Qalib olmuş işəgötürənlə müvafiq məqsədli proqramın istiqamətləri, tərəflərin hüquq və vəzifələri, habelə məsuliyyəti göstərilməklə üç illik müddətə müqavilə bağlanılacaq. Bu iş yerlərində iş ilə təmin olunan sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərlə isə iki ildən az olmayan müddətə əmək müqaviləsi imzalanacaq. Məqsəd sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin edilməsi və bu kateqoriyadan olan şəxslər üçün yeni iş imkanlarının yaradılmasıdır”.

## MİNİMUM ƏMƏK HAQQI ARTDIQCA BU MƏBLƏĞ DƏ YÜKSƏLƏCƏK

İqtisadçı Vüqar Bayramovun sözlərinə görə, qanuna edilən dəyişikliklər iş axtaran vətəndaşlarımızın özəl sektorda işlə təmin olunmaqla dövlətdən ayda minimum əməkhaqqı məbləğində, yəni 345 manat vəsait almasına imkan verəcək. Minimum əməkhaqqı artdıqca bu məbləğ də yüksələcək: “Yeni qanun özəl sektorda dövlət hesabına daha çox iş yerlərinin yaradılmasına xidmət edəcək və dövlət İşsizlikdən Sığorta Fondunun vəsaiti hesabına özəl sektorda kvotadan əlavə 15 iş yerinin yaradılmasını dəstəkləyəcək. Praktik olaraq ilkin qiymətləndirmələrə görə, təxminən 15 mindən artıq vətəndaşımızın kvotadan əlavə işlə təmin edilməsi mümkün olacaq. Bu zaman onlar özəl sektorda işə cəlb olunacaqlar və maaşları dövlət tərəfindən ödəniləcək”. İqtisadçı bildirir ki, yeni qanun işaxtaranların daha qısa zamanda işlə təmin olunmasına şərait yaradacaq.



Foto: Firudin Səlimov-Global Media Group

Vüqar Bayramov

Rəşad Həsənov

### ƏMƏKHAQQININ BİRGƏ MALİYYƏLƏŞDİRİLMƏSİ

“Proqram məqsədəuyğundur, amma necə icra edilməsi vacib məslədir”, - deyən iqtisadçı Rəşad Həsənov hesab edir ki, bu tip məşğulluq tədbirləri həm həssas sosial qrupların rifahının təmin edilməsi, həm də dövlət vəsaitlərinin səmərəli istifadə edilməsi baxımından müsbət təşəbbüsdür: “İnsanlar işləyəcək və gəlir əldə edəcəklərsə, onların artıq ünvanlı sosial yardıma ehtiyacı qalmayacaq. Dövlət bu tərəfdən vəsaitə qənaət edəcək. Eyni zamanda, bu, sosial iş yerlərində əməkhaqlarının birgə maliyyələşdirilməsi mexanizminin təkmilləşdirilməsi çərçivəsində həyata keçirilən bir prosesdir. 2020-ci ildə yaradılan əməkhaqqının birgə maliyyələşdirilməsi mexanizminə ayrılan vəsaitlərdən istifadə mexanizmi özünü doğrultmadı. Hesablama Palatası bu istiqamətə ayrılan vəsaitin üç milyondan bir milyona azaldılması ilə bağlı təşəbbüslə çıxış etdi. Əsaslandırması da bu oldu ki, ayrılan pullar istifadə edilmir. Artıq bu layihə çərçivəsində müəyyən dinamika var. Son dörd ildə 2600 nəfər işlə təmin edilib. Əgər bu proses düzgün kommunikasiya edilərsə və sahibkarlar işçilərinin əməkhaqqının dövlət tərəfindən subsidiyalaşdırılmasını bilərlərsə, bu fürsətdən istifadə etməyə çalışacaqlar. Sadəcə, bu prosesə neqativ təsir göstərən maqam sahibkarların əmək münasibətlərində leqallaşdırmama məsələsindən qaynaqlanır. Düşünürəm ki, meyarlara uyğun gələn şirkətlərin razılaşma əsasında prosesə cəlb edilməsi proqramı genişləndirəcək”. İqtisadçı hesab edir ki, kriteriyalara bir az yumşaq yanaşmaq lazımdır: “Məsələn, işəgötürən şirkətin vergi borcunun olub-olmaması o qədər də sərt meyar olaraq müəyyən edilməməlidir. Amma bu, yeni qaydalarda öz əksini tapdı. Burada əsas məqsəd məşğulluğun dəstəklənməsidirsə, bu kimi meyarları müəyyən edəndə daha ehtiyatlı olmaq lazımdır”.

PAYTAXTDA ORTA HESABLA BİR ADAMA BEŞ KVADRATMETR YAŞILLIQ DÜŞÜR

# BAKINI NECƏ YAŞILLAŞDIRAQ?

Bakıda orta hesabla bir adama beş kvadratmetr yaşıllıq düşür. Bu göstəricinin normadan az olmasını rəsmi qurumlar da etiraf edir. Çıxış yolu kimi yaşıllıqların artırılması, Abşeron yarımadasının yükünün azaldılması göstərilir.



**SEVİNC ABBASOVA**

Son illər Bakı şəhərində yaşıllıq sahəsinin artırılması istiqamətində işlər görülsə də, bu, hələ norma çərçivəsində deyil. Ekspertlərin fikrincə, mövcud problemin həlli üçün həm konkret tədbirlər planı, həm də böyük maliyyə vəsaiti olmalıdır.

Bu sahədə problemlərin olduğunu rəsmilər də inkar etmirlər. Ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva deyib ki, Bakıda orta hesabla bir adama beş kvadratmetr yaşıllıq düşür: “Burada norma 20-25 kvadratmetrdir. Görüləsi işlər çoxdur. Yaşıllıqların artırılmasına bütün dövlət orqanları qoşulur. Bu, çox müsbət haldır”.

### 14 MİN HEKTAR YAŞIL SAHƏ

Məlumat üçün bildirək ki, hazırda Bakıda mövcud olan yaşıllıqların ümumi sahəsi təxminən 14 min hektara yaxındır. Beynəlxalq Səhiyyə Təşkilatının bu sahədə qəbul etdiyi normaya əsasən, şəhərlər üçün yaşıllıq sahələri şəhərin ümumi ərazisinin 10 faizdən az hissəsini təşkil edərsə, bu, aşağı göstərici, 40-60 faiz hissəsini təşkil edərsə, yüksək göstərici sayılır. Başqa sözlə, adambaşına yaşıllıq norması şəhərlərdə minimum doqquz kvadratmetrdən az olmamalıdır. Bu məqsədlə BMT-nin 1992-ci il tarixli Ətraf Mühit və İnkişaf Konfransında qəbul olunan prinsiplər əsasında şəhərlərin ekoloji statusunu müəyyən edən meyarlar üzrə müxtəlif beynəlxalq qiymətləndirmə sistemləri yaradılıb.

Bəs, görəsən, paytaxtın yaşıllıq problemini həll etmək üçün hansısa tədbirlər planı mövcuddurmu? Bunun üçün hansı addımların atılmasına ehtiyac var?

### NAZİRLƏR KABİNETİNİN NORMATİVİ

Nazirlər Kabinetinin təsdiq etdiyi “Yaşayış məntəqələrinin yaşıllıqla təmin edilməsi Normaları”na görə, yaşayış məntəqələrinin layihələndirilməsi zamanı yaşıllıq faizi ayrılmış ərazinin minimum 40 faizini təşkil etməlidir. Əhalinin mövcud məskunlaşdığı məhəllələr yenidən layihələndirilərkən yaşıllıq faizi həmin ərazinin minimum 25 faizini təşkil etməlidir. Bir adama düşən yaşıllıq sahəsi isə iri şəhərlərdə on, böyük şəhərlərdə doqquz, orta şəhərlərdə yeddi, qəsəbədə səkkiz, kənddə isə on iki kvadratmetrdir.

**Bakıda mövcud olan yaşıllıqların ümumi sahəsi təxminən 14 min hektara yaxındır**

### SƏNAYENİN 70 FAİZİ ABŞERON YARIMADASINDADIR

Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın üzvü, ekoloq, dosent Elman Yusifov deyib ki, son dövrlər Bakı və Abşeron yarımadasında böyük yaşıllaşdırma işləri həyata keçirilir. Onun sözlərinə görə, əvvəlki dövrlərlə müqayisədə bu gün Bakı aqlomerasiyası və Abşeron yarımadası qat-qat daha yaşıldır: “Çox güman ki, bununla bağlı müvafiq plan mövcuddur. Çünki biz, demək olar ki, hər ay ilin fəsillərindən asılı olaraq könüllülərlə bərabər müxtəlif ərazilərdə yaşıllıqlar salındığını müşahidə edirik. Ekologiya və Təbii Sərvətlər Nazirliyi bu məsələyə xüsusi diqqət yetirir. Amma burada problem başqadır. Məsələ ondadır ki, ölkə sənayesinin 70 faizdən çox hissəsi Abşeron yarımadasında yerləşir. Bu, olduqca pis haldır. Şəhərdəki avtomobillərin mühərrikinin qızması, buraxdığı tüstü nəticəsində Bakı və Abşeron yarımadasının ekologiyası korlanır. Digər tərəfdən, bu, temperaturu artırır. Əgər Bakıda külək olmasa, vəziyyət daha gərgin olar”.



Elman Yusifov

Cahid Həsənov

## PAYTAXTIN YÜKÜNÜN AZALDILMASINA EHTİYAC VAR

Ekspert problemdən çıxış yolunu Bakının yükünün azaldılmasında görür. O hesab edir ki, paytaxtın müəyyən strukturları ya işğaldan azad edilmiş ərazilərə, ya da ölkənin mərkəzi hissəsinə köçürülməlidir: “Bu problemin çıxış yolu paytaxtın iki yerə bölünməsidir. Çox arzu edirəm ki, nə vaxtsa paytaxtın müəyyən strukturları işğaldan azad edilmiş ərazilərə köçürülsün. Biz orada araşdırmalar aparırıq. Dövlət bu ərazilərə böyük investisiyalar qoyur. Yəqin ki, nə vaxtsa paytaxtın bir hissəsi məhz həmin ərazilərə köçürüləcək. Eyni zamanda, müəyyən strukturları ölkənin mərkəzi hissəsinə də köçürmək mümkündür”

## ABŞERON NƏFƏS ALMALIDIR

Ekspert vurğulayıb ki, sənayenin böyük hissəsinin ölkənin şərqində təmərküzləşməsi həm geostrateji baxımdan, həm də ərazidə yaşayan insanların sağlamlığı baxımından təhlükəlidir: “Digər tərəfdən, nəzərə alaq ki, Abşeron yarımadasında 200 ildən çoxdur, neft çıxarılıb. Bu, ərazinin radioaktiv fonunu yüksəldir. Bakı və Abşeron yarımadasına nəfəs almağa imkan verməliyik. Bu ərazilər bir az dincəlməlidir. Biz sənayenin bir hissəsini buradan qoparsaq, əhalinin sıxlığı da azalacaq. Nəticədə adambaşına düşən yaşıllıq sahəsi də artacaq”.

### BAKIYA YAXIN ƏRAZİLƏRDƏ MEŞƏLƏR SALINMALIDIR

Şəhərsalma memarı, şəhər dizayneri, professor Cahid Həsənov bildirib ki, vaxtilə Bakının yaşıllaşdırılması ilə bağlı layihələr mərhum akademik Həsən Əliyevin tövsiyələri əsasında həyata keçirilib: “Bu istiqamətdə işlər 1970-80-ci illərdə ən yüksək səviyyəyə çatmışdı. Bakı yaşıllığı ilə göz oxşayırdı. Sonradan bu sahədə problemlər yaranmağa başladı. Müxtəlif MTK-lar tərəfindən xeyli sayda yaşıllıq sahəsi məhv edildi. Amma son beş ildir ki, biz Bakıda yaşıllıqların bərpası və artırılması istiqamətində ciddi dönüş hiss edirik. Lakin şəhərin normalara uyğun yaşıllaşdırılmasına mane olan faktorlar da var. Məsələn, Bakının küləkli və qumsal şəhər olması onun tam yaşıllıqlar qoynunda olan bir şəhərə çevrilməsinə imkan vermir”.

Memar həmçinin qeyd edib ki, daha çox Bakıya yaxın ərazilərdə şəhərkənarı meşələrin, seyrəngahların salınmasına diqqət artırılmalıdır: “Bunu paytaxt daxilində yaratmaq memarlar üçün çətin məsələdir. Çünki Bakıda boş ərazi qalmayıb. Bakının 2040-cı ilədək inkişafına dair Baş planında adambaşına səkkiz kvadratmetr yaşıllığın təmin edilməsi planlaşdırılıb. Bu çərçivədə şəhərin yarımsəhra landşaft xüsusiyyəti və iqlim şəraiti, həmçinin güclü küləklər və suvarma üçün su ehtiyatlarının çatışmazlığı nəzərə alınaraq Bakıda əsas etibarı ilə kiçik və ya orta ölçülü yaşıllıqlar yaradılacaq. Hesab edirəm ki, Bakıya yaxın ərazilərdə şəhərkənarı meşələrin, seyrəngahların salınmasına da diqqət artırılmalıdır”.








# ELMİN İNKİŞAF TARİXİNİ ƏKS ETDİRƏN NADİR MƏKAN

Qaliley Kopernikin əsərlərini dəstəklədiyinə görə kilsənin hücumlarına məruz qalıb, işləmək hüququndan məhrum edilib, əsərləri qadağan olunub. Alim yoxsulluq içində ölüb, yalnız 100 il sonra onun qalıqları dəfn olunmağı xəyal etdiyi Florensiya Santa Croce məbədinə köçürülüb.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Qalileo Qaliley Muzeyi (Museo Galileo) elmin bütün inkişaf tarixini bir yerdə izləməyə imkan verən nadir məkandır. Məşhur italyan fiziki, riyaziyyatçısı, astronomu və filosofu Qaliley bu evdə doğulmasa da, ömrünün müəyyən illərini burada keçirib. Onun bu evdə apardığı tədqiqatlara və ixtiralara görə bura "Müasir elmin atası", "Müasir astronomiyanın banisi" adlandırılıb.

### ƏN BÖYÜK ELMİ ALƏTLƏR KOLLEKSİYASI

Qalileo Muzeyinin yerləşdiyi bina 12-ci əsrdə ucaldılmış saraydır. Florensiyanın mərkəzi hissəsində yerləşir. Duomo Meydanından yol birbaşa muzeyə aparır. Muzeyin qarşısında "Lusifer"in kərtənkələyəbənzər quyruğunun kölgəsi ilə ilin istənilən vaxtı günorta vaxtını təyin etməyə imkan verən məşhur "Florensiya günəş saatı" var.

Bu binada əvvəllər elm tarixi muzeyi yerləşib. Lakin hərtərəfli yenidənqurma işlərindən sonra ona Qalileyin adı verilib.

Muzeydə nümayiş etdirilən eksponatlar hələ 16-cı əsrdə toplanmağa başlayıb. İlk kolleksiyaçı Florensiyanı idarə edən Medici idi. Hersoq kifayət qədər sayda müxtəlif alət və eksperimental cihazlar toplayaraq, ilk elmi cəmiyyətin yaradılması qərarına gəlib. Sonradan kolleksiya 19-cu əsrə qədər iki əsr ərzində eksponatlar toplayan Lotaringiya sülaləsinin nümayəndələrinə verilib. Beləcə Florensiyanı idarə edən iki böyük sülalə tərəfindən toplanmış ən qiymətli elmi alətlər kolleksiyası məhz bu muzeydə sərgilənir. Bundan əlavə, muzeyin divarlarında Qalileyin özünün dizayn və ixtira etdiyi unikal alətlər qorunur.

"Alətlər ilk dəfə 18-ci əsrdə Uffizi qalereyasında nümayiş etdirilib və muzey də həmin əsrdə yaranıb. Bir müddət kolleksiya 1775-ci ildə tikilmiş Zoologiya və Təbiət Tarixi Muzeyində (indiki La Specola Muzeyi) saxlanıldı. Yalnız Florensiyada keçirilən elmi sərgidən sonra Elm Tarixi İnstitutunda elmi muzeyin yaradılması qərara alındı. Onun yaranma tarixi 1930-cu ildir", - deyə bələdçi məlumat verdi.




### YOXSULLUQ İÇİNDƏ ÖLƏN ALİM

Muzey kifayət qədər geniş sərgiyə malikdir. Kolleksiyalar iki mərtəbədə, 18 zalda sərgilənir. Zalların birində qonaqları böyük alimin əzəmətli büstü qarşılayır. Sensorlu monitordan Qalileyin həyat hekayəsi nəql olunur: "Elmin simvoluna çevrilmiş Toskana alimi yoxsul florensiyalı musiqiçinin ailəsində doğulub. Ailədəki dörd övladın ilki olub. Pizada anadan olsa da, bütün yetkin həyatını Florensiyada keçirib. Gənc əsas sahəsi - fizika, mexanika, astronomiya və riyaziyyatla yanaşı, musiqi alətlərində yaxşı ifa edir, yazı ilə də məşğul olurdu.

O, Nikolay Kopernikin dünya sistemini müdafiə edərək inkişaf etdirib, Ptolomeyin yanlış geosentrik sistemini ifşa edib, materiya və hərəkətin əbədiliyini əsaslandırıb, Aristotel fizikasının səhvlərini aşkar edib.

İxtiraçı təcrübi fizikanın əsasını qoyub, elmdə eksperimental tədqiqat üsulunu tətbiq edib və elmi dindən ayırıb. Qaliley Kopernikin əsərlərini dəstəklədiyinə görə kilsənin hücumlarına məruz qalıb, işləmək hüququndan məhrum edilib, yazılı əsərləri qadağan olunub. Alim yoxsulluq içində ölüb, yalnız 100 il sonra onun qalıqları dəfn olunmağı xəyal etdiyi Florensiya Santa Croce məbədinə köçürülüb.

### YUPİTERİ KƏŞF EDƏN TELESKOP

Qalileo Qalileyin bütün əsərləri sərgiyə daxildir. Onların arasında məhz Qaliley tərəfindən icad edilən teleskoplar da var. Onlardan biri Yupiter planetinin kəşfi zamanı istifadə edilib. Chimento Akademiyasının üzvləri tərəfindən istifadə edilən termometrlər, Antonio Santucci tərəfindən dizayn edilmiş və tikilmiş nəhəng silah sferası da daxil olmaqla yer və səma qlobuslarının qeyri-adi kolleksiyası böyük maraq doğurur. Təqdim olunan, tarixi nöqteyi-nəzərdən dəyərli olan elektromaqnit sahə cihazları, tibbi alətlər və kimyəvi dəstlər, xəritələr, termometrlər, görkəmli alimlərin riyaziyyat və fizikaya aid çoxcildlik əsərləri Qalileyin Toskana və ümumilikdə İtaliyanın müxtəlif sahələrinin inkişafına mühüm töhfə verə bildiyini göstərir.

Muzey təkcə nadir eksponatları sərgiləmir, həmçinin elmi tədqiqat institutudur. Onun ixtisaslaşmış kitabxanası dünya alimlərinə zəngin resurslar təklif edir. Burada qonaqlar təkcə ulduzları və planetləri öyrənmək üçün deyil, həm də digər elmi məqsədlər üçün olan qədim alətlərlə, məsələn, tibbi müalicələr üçün alətlərlə tanış ola bilirlər.

## BEŞ MİN QƏDİM KİTABIN SAXLANILDIĞI KİTABXANA

Qalileo Muzeyinin üçüncü mərtəbəsində unikal antik kitabxana var. Hazırda burada 5 min qədim kitab kolleksiyası və 150 minə yaxın elmi və tarixi əsər yer alıb. Kitabxanada tədqiqat işləri aparılır. Onu şəxsən ziyarət etmək imkanı olmayanlar istədikləri vaxt elektron kataloqa daxil olub, lazımi işlərlə tanış ola bilərlər.

Muzeydə multimedia laboratoriyası da var. 1991-ci ildən fəaliyyət göstərən laboratoriya onlayn və oflayn interaktiv proqramlarla fəaliyyət göstərir. Bununla da muzeylə maraqlananlar nəinki qurumun fəaliyyəti, həm də daimi və müvəqqəti sərgilərin keçirilməsi haqqında məlumat əldə edə bilirlər. Laboratoriyada elmi tədqiqatların və tarixi əsərlərin saxlanılması üçün rəqəmsal arxivlər də yaradılıb. Üçüncü mərtəbə həmçinin müvəqqəti tədbirlər üçün ayrılıb. Burada tez-tez sərgilər, konqreslər, beynəlxalq görüşlər və s. keçirilir.

Son bir neçə il ərzində Qalileo Muzeyi uşaqlara və onların valideynlərinə yönəlmiş qədim sənətkarlıq texnikalarının yaddaşını canlandırmaq məqsədilə silsilə tədbirlər təşkil edir. Dərslər zamanı iştirakçılar praktiki dərslərdə iştirak edirlər, sonunda onlar əvvəllər görülmüş manipulyasiyaları müstəqil şəkildə təkrarlamağa kömək edən təlimatı alırlar.

Muzeyə giriş biletlərini (6-10 avro) birbaşa yerli kassadan almaq və ya virtual olaraq bron etmək olar. Xarici turistlər üçün hər bir obyektdə QR kodu var, onun sayəsində təqdim olunan eksponat haqqında tam məlumat əldə etmək olur.

Muzey rəhbərliyi eksponatların çəkilişinə qadağa qoymur. Bütün eksponatlara baxmaq üçün ən azı 4-5 saat vaxt lazımdır.

# “BƏYƏM BİLMİRLƏR Kİ, BELƏ BİR ANSAMBL OLUB?”



Xalq artisti, “Lalə” qızlar ansamblının rəhbəri Ceyran Haşımova: “Qızlardan ibarət belə bir ansambl indiyə qədər olmayıb. Amma indi bu tarixi unudurlar. Ansamblı heç yerə dəvət etmirlər”.

SÖHBƏTLƏŞDİ
TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

“Bir aydan çoxdur ki, dərin stress keçirmişəm. Ürək xəstəliyim şiddətlənib. Telekanallardan, radiolardan zəng edib efirə dəvət edirlər, gedə bilmirəm. Adam xəstə olanda gözünə heç nə görünmür. Xüsusən, bu boyda zəhmətin qarşısında səni diqqətdən kənarda qoyanda bu, adama daha çox toxunur...”

Xalq artisti, “Lalə” qızlar ansamblının rəhbəri Ceyran Haşımovaya müsahibə üçün zəng edəndə sanki dolan bulud kimi yağdı. Evdə xəstə yatdığını dedi: “İstəmirəm ki, kimsə məni bu vəziyyətdə görsün...” Amma Ceyran xanım ürəyi dolu olduğundan elə telefonda bir müsahibəlik söhbət etdi.

**“EVDƏKİLƏRİ ALDADIRDIQ Kİ, DÖYÜŞ OLMAYAN YERLƏRƏ GEDİRİK”**

● **Yəqin ki, səhhətinizlə əlaqədar daha konsertlərə də gedə bilmirsiniz...**

● Ansamblın fəaliyyəti yerindədir, ancaq daha konsertlərə getmirəm. Lazım olanda ansamblın üzvləri mənim evimə gəlir, məşq edirik. İndi mənim 90 yaşım var. Bilirsiniz, bu nə deməkdir? Vəfalı müğənnilərim var, hamısı həyatda olmasa da, sağ qalanlar gəlib məşqlərdə iştirak edirlər. Rəhilə Bəndəliyeva, Nisə Qasımova, Kəmalə Rəhimli, Təranə Vəlizadə, Ruhəngiz Allahverdiyeva, Mahrux Muradova, Nəzakət Məmmədova, Sahibə Əhmədova, Firuzə İbadova sənətdə ilk addımlarını “Lalə” qızlar ansamblı ilə atıblar. Hamısı da fəxri adlara, mükafatlara layiq görülüblər. Onlar bu ansamblla tanınıblar. İndi onları ayrı-ayrılıqda bir müğənni kimi harasa dəvət edirlər, amma ümumilikdə ansamblın özü unudulub. Ansamblı heç yerə dəvət etmirlər. Hər yerdə tələbələrim var. Xalq artisti, Əməkdar artistlərdir. Biz ən çətin dövrdə işləmişik. İfaçıların 16-17 yaşı olanda mənim ansamblıma gəliblər. İndi onların hamısı nənə olublar. Çoxu da müəllim işləyir. Yağışda, qarda, qızmar günəş altında rayonlara qastrola getmişik. Əməkçilər qarşısında konsertlər vermişik. Müharibə vaxtı hərbi hissələrdə, səngərlərdə çıxış etmişik. Güllələr altında ifalarımız olub. Evdəkiləri aldadırdıq ki, döyüş olmayan yerlərə gedirik. Ağdamda olanda “Hara gəlmisiniz, ermənilər gəlir”, - deyə camaat bizə bildirirdi. Birtəhər əsgərləri yığıblar, konsert vermişik. Əsgərlərdən birinin ”mənim üçün bir “hopstop” çalın, bəlkə sabah olmadım...” sözləri heç yadımdan çıxmır. Gözümüzdən yaş axa-axa ifa edirdik. Uşaq evlərində, qocalar evində nə qədər konsertlər vermişik. “Lalə” qızlar ansamblını hər yerə göndərirdilər. Biz də heç vaxt “yox” demirdik. Çünki bu, bizim sənətimizdir. Qızlardan ibarət belə bir ansambl indiyə qədər olmayıb. Amma indi bu tarixi unudurlar...

> *“Müharibə vaxtı hərbi hissələrdə, səngərlərdə çıxış etmişik. Güllələr altında ifalarımız olub. Evdəkiləri aldadırdıq ki, döyüş olmayan yerlərə gedirik.”*

● **Belə bir ansamblın yaranması, fəaliyyəti doğrudan da maraqlıdır...**

● Asəf Zeynallı adına Musiqi Kollecini əla qiymətlərlə bitirəndə, məni orada müəllim kimi işə dəvət etdilər. Tələbələrimin arasında qızlar da vardı. Amma o dövrdə musiqiçi qızlar o qədər də çox deyildi. O vaxta qədər mən Səid Rüstəmovun rəhbərlik etdiyi Xalq çalğı alətləri orkestrində tar çalırdım. Səid müəllim orkestrin nəzdində sazçı qızlar dəstəsi yaratmaq istəyirdi. İfama qulaq asandan sonra məni həmin qrupa dəvət etdi. 1959-cu ildə Azərbaycan Dövlət Teleradio Komitəsinin Xalq çalğı alətləri orkestrinin saz qrupuna qəbul edildim. Bu qrupda 4 sazçı qız vardı. Mən qrupun konsertmeysteri idim. 1959-cu ildə Moskvada keçirilən mədəniyyət və incəsənət ongünlüyündə mən də iştirak etdim. Bu, çox böyük hadisə idi. Azərbaycanın ən görkəmli mədəniyyət xadimləri həmin dekadanın iştirakçıları idi. Mən də o böyük sənətkarlarla birlikdə həmin dekadada iştirak etdiyim üçün özümü xoşbəxt hiss edirdim. Qızlardan ibarət ansambl yaratmaq istəyi isə saz qrupunda işləyərkən ağlıma gəldi. 1964-cü il idi. Bir gün fikrimi tələbə qızlara dedim, onların da xoşuna gəldi. Ansamblı yaratmaq üçün işlərə başladım. Əvvəlcə Musiqi Kollecindəki kamança çalan qızları, daha sonra bir qarmonçalanı dəvət etdik. Ansamblın ilk qarmonçalanı Leyla Şıxıyeva idi. Tələbəm Təcrübə Sultanova isə ilk tarçalanlardan idi.




## “İNDİ ONLARDAN HEÇ BİRİ ANSAMBLDA QALMAYIB”

● **İndi də o ifaçılar ansamblda çalırlarmı?**

● İndi onlardan heç biri ansamblda qalmayıb. Zarafat deyil, 50 ildən çox vaxt keçib. Ansamblın elə üzvləri olub ki, onlar 25-30 il mənimlə işləyiblər, əsl fədakarlıq göstəriblər. Müğənni Rəhilə Bəndəliyeva artıq 35 ildir bizim ansamblda çalışır. Bu illər ərzində yüzlərlə istedadlı azərbaycanlı qızı bizim ansamblda yetişib. Qızlar ərə gedəndən sonra mən başqa ifaçıları dəvət edirdim. Onlar da gəlib ansambla uyğunlaşırdılar. İndi həmin qızların böyük əksəriyyəti müxtəlif musiqi məktəblərində dərs deyirlər. Bəziləri ailə qurandan sonra həyat yoldaşları onları ansamblda ifa etməyə qoymadılar. Bəzilərinin valideynləri də mane olurdu. O vaxt insanların düşüncələri fərqli idi. Qadınların musiqi aləmində olmasını o qədər də normal qarşılamırdılar. Biz böyük əziyyətlər hesabına ansamblı yaşadır, inkişaf etdirdik. Elə bir konsert yox idi ki, “Lalə” qızlar orada çıxış etməsin. Amma sonradan özüm də, ansambl da unuduldum.

**“ANA-BALA HƏR İKİMİZƏ EYNİ GÜNDƏ FƏXRİ AD VERİLİB”**

● **Ceyran xanım, bəs özünüzü yada salmağa cəhd etmədiniz? Axı deyirlər: “Ağlamayana süd verilmir...”**

● Bəyəm bilmirlər ki, belə bir ansambl olub? Bilmirlər ki, Xalq artisti adını alan yeganə tarzən qadınam? Oğlum Rəşad Haşımov da “Rast” qrupunun rəhbəridir. İlk dəfə Azərbaycanda ana-bala hər ikimizə eyni gündə fəxri ad verilib - mənə Xalq artisti, ona Əməkdar artist. Prezident təqaüdçüsüyəm. Ömrümün çoxu gedib, nə qalıb ki? Mən tək özüm üçün çalışmamışam. Zəngin bir tarixi olan ansambl yaratmışam, milli musiqimizin keşiyində durmuşam. Amma indi yaddan çıxmışam. Elə bil ki, mənim kimi sənətkar olmayıb...

● **Evdə tək qalanda ifa edirsiniz?**

● Yox. Çünki ifa edəndə ağlayıram. “Heyf məndən!” deyirəm...



Kaspi İDMAN
ÜÇ ƏSRİN QƏZETİ
10 AVQUST ŞƏNBƏ 2024
www.kaspi.az

# HAMISININ ŞANSI QALIR

Azərbaycanı avrokuboklarda təmsil edən klublarımızdan heç biri bu həftə keçirdikləri qarşılaşmalarda qələbə qazana bilmədilər. Amma klublarımızın üçünün də növbəti mərhələyə keçmək üçün yaxşı imkanları var.



Klublarımız üçün avrokubok mövsümü enişli-yoxuşlu davam edir. Təmsilçilərimizdən "Sumqayıt" Konfrans Liqasının II təsnifat mərhələsində Macarıstan "Fehervar"ı ilə duellərdə istənilən nəticəni əldə edə bilmədi və qitəmiqyaslı yarışlarla erkən vidalaşdı. Lakin son illərdə Azərbaycan futbolunun Avropadakı yeganə təmsilçisi olan "Qarabağ"ın bu dəfə yoldaşları var. "Zirə" Avropa Liqasından başladığı yola Konfrans Liqasında davam edir, "Sabah" isə güclü Hayfa "Makkabi"sini mübarizədən kənarlaşdırmaqla KL-də irəli addım atıb.

## İŞİNİ ÇƏTİNƏ SALAN "SÜVARİLƏR"

"Qarabağ" bu il də avrokuboklarda əsas uğur ümidimizdir. Çempionlar Liqasında yarışan Ağdam klubu ilk olaraq Cəbəllütariq "Linkoln"unu iki oyunun cəmində darmadağın edərək (7:0) növbəti mərhələyə adladı. Burada rəqib Bolqarıstanın "Ludoqorets" klubudur. Tərəflər arasında Bakıda keçirilən ilk görüşdə "atlılar" məğlubiyyətlə üzləşdilər (1:2). Ancaq oyunun gedişatı "süvarilər"in ən azı bir xala layiq olduğunu deməyə əsas verir. "Ludoqorets" gücünə görə "Qarabağ"ın ötən mövsüm avrokuboklarda məğlub etdiyi bir çox komandadan geri qalır. Qurban Qurbanovun "drujinası" isə keçən mövsümlə müqayisədə ən azı zəifləməyib. Yay transfer dönəmində əsas məsələ heyəti qorumaq idi ki, komanda bunu bacarıb. Əslində, Bolqarıstan klubunu mübarizədən kənarlaşdırmaq üçün bütün resurslar mövcuddur.

"Ludoqorets" ilk qarşılaşma göstərdi ki, "Qarabağ"ı çox yaxşı analiz etməyi bacarıblar. Azərbaycan təmsilçisi təşəbbüsü əlində saxlayan tərəf olsa da, rəqibin ağıllı müdafiəsi və yaxşı əks-hücumları komandamıza problemlər yaratdı. Lakin "Qarabağ" çoxlu qol fürsətləri yaxalamağı bacardı və bu, rəqibin zəif cəhətlərinin göstəricisidir. Bolqarıstanda "Ludoqorets"i nəinki məğlub etmək olar, hətta onlara böyük hesabla qalib gəlmək də mümkündür. Üstəlik, bolqarların iki əsas heyət üzvü cavab matçında meydana çıxa bilməyəcək. Biri Bakıda ağır zədə aldı, digəri isə qırmızı vərəqə cəzalısıdır.

Mərhələni keçən kollektiv Çempionlar Liqasının pley-offunda Xorvatiyanın "Dinamo" (Zaqreb) klubu ilə qarşılaşacaq. Son illərdə zəifləyən bu komandanı keçmək mümkünsüz deyil. Mərhələnin məğlubu isə Avropa Liqasının pley-offunda "Petrokub" (Moldova) - TNS (Uels) cütünün qalibi ilə üz-üzə gələcək. Bu komandaların isə heç biri "Qarabağ" səviyyəsində görünmür. Əlbəttə, könül istərdi ki, "atlılar" ÇL-də irəli getsin, lakin AL-in əsas mərhələsi də pis səslənmir və əslində orada irəli getmək üçün yol da daha hamardır.



Foto: Tapdıq Abdullayev/Global Media Group

## İNADKAR "QARTALLAR" ÜÇÜN YAXŞI FÜRSƏT

Mübarizəyə Avropa Liqasında başlayan "Zirə" bəxtsiz şəkildə Moldova "Şerif"inə uduzduqdan sonra yola Konfrans Liqasında davam edir. Orada komandanın çıxışı uğurlu alınır. Əvvəlcə Slovakiyanın "Dunayska Streda" klubunu hər iki qarşılaşmada məğlub edən "qartallar" turnirin III təsnifat mərhələsində Xorvatiya təmsilçisi "Osiyek"ə rəqibdir. Səfərdə keçirilən ilk görüş təxminən bərabər səviyyədə keçdi. Yalnız ilk hissənin sonlarında yarımmüdafiə xəttindəki gözlənilməz top itkisi "Zirə"yə baha başa gəldi. Lakin "Osiyek" Bakıya minimal hesablı üstünlüklə təşrif buyura bilməyəcək. Çünki "qartallar" inadkarlıq göstərərək son saniyələrdə bərabərliyi təmin etməyi bacardılar. Ümumiyyətlə, ilk matç göstərdi ki, "Osiyek"i məğlub etmək "Zirə" üçün mümkünsüz tapşırıq deyil. İlk qarşılaşmadan sonra tərəflərin şansları təxminən bərabərdir. Lakin "Zirə"nin Bakıda doğma meydan və azarkeş üstünlüyü olacaq. Ələ yaxşı fürsət düşüb və bundan maksimum yararlanmaq lazımdır. Cütün qalibi pley-offda ya "Omoniya" (Kipr), ya da "Fehervar"la (Macarıstan) üz-üzə gələcək. Doğrusu, mümkün rəqiblər də münasibdirlər. Bu sədd aşılacağı təqdirdə, "Zirə" tarixində ilk dəfə avrokubokun əsas mərhələsində oynamaq hüququ qazanmaq şansına malik olacaq.



## ÜMİDLƏRİ DOĞRULTMAYAN "SABAH"

Düzdür, İrlandiyada "Sent-Patriks"ə minimal hesablı məğlubiyyət hər şeyin sonu deyil. Bakıda bu məğlubiyyətin əvəzini artıqlaması ilə çıxmaq və mərhələ adlamaq mümkündür. Lakin "Sabah"dan elə səfərdə də qələbə gözlənilirdi. Ümumiyyətlə, rəqiblər arasında ən münasibi "futuristlər"ə düşüb. "Sabah" bu raundda aşkar favoritdir. Lakin ilk görüşdə komanda qətiyyən statusuna uyğun çıxış etmədi. İrlandiyada Azərbaycan təmsilçisində demək olar ki, heç nə alınmırdı. Yaxşı ki cəmi bir qolluq məğlubiyyətlə qayıtmaq mümkün oldu. Səfərdə ümidlər doğrulmasa da, Bakıda bu rəqibi mütləq məğlub etmək lazımdır. "Sabah"ın potensialı buna kifayət edir.

Cütün qalibi pley-offda ya "İberiya" (Gürcüstan), ya da "Başakşəhər" (Türkiyə) ilə qarşılaşacaq. İlk matçda qardaş ölkə klubu 1:0 üstün olan qardaş ölkə klubu növbəti mərhələyə daha yaxındır və pley-offun da favoriti olacaq. Lakin futbolda mümkünsüz heç nə yoxdur.

